DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 07 (381) / İYUL 2023-CÜ İL




Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir, bizim gücümüz də bundadır. Azərbaycanda yaşayan etnik qrupların bütün nümayəndələri eyni hüquq və vəzifələrə, təhlükəsizlik səviyyəsinə malikdirlər. Nə üçün hansısa etnik qrup bu fonda fərqlənməlidir, bu, mənə də tam aydın deyil. Bax, bizim yanaşmamız belədir. Biz indiyədək Xankəndidə və ətrafında yaşayan cəmiyyətin sağlam düşüncəli hissəsinin Azərbaycana belə məhəl qoyulmamasının bütün perspektivsizliyini başa düşəcəyinə və sağlam düşüncənin üstünlük təşkil edəcəyinə inamımızı itirməmişik. Əks halda, düşünürəm ki, kiminsə gəlib onların yerinə döyüşəcəyinə indi yalnız sadəlövhlər bel bağlaya bilər. Onların reallıqları anlaya bilməsi və barışması üçün bir neçə mərhələ olub.

Onlar müxtəlif instansiyalara, qonşulardan başlayaraq uzaqda yerləşən bəzi ölkələrə qədər müxtəlif dövlətlərə müraciət ediblər. Amma, zənnimcə, ağlı başında olan heç kim Azərbaycanın ərazisində bizimlə döyüşməyəcək. Ona görə də onlar sonunda bu reallıqları başa düşməli və barışmalıdırlar. Artıq söylədim ki, işğal dövründə vasitəçilər mənə dəfələrlə deyirdi ki, "Birinci Qarabağ müharibəsi belə qurtarıb, siz reallıqları qəbul etməlisiniz". Lakin mən onları qəbul etmirdim və etmədim. Ancaq indi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq. Bu səbəbdən ümid edirəm ki, onlar bu sözləri eşidəcək və düzgün nəticə çıxaracaqlar.

**Prezident İlham Əliyev**
Şuşada keçirilmiş Qlobal Media Forumunun açılış mərasimində jurnalistlərin suallarına cavabından
22 iyul 2023

BAKIDA "MEDIA VƏ DİNİ TƏHLÜKƏSİZLİK" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Səh. 4

"MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"



Səh. 5

DQİDK-NIN ŞÖBƏ MÜDİRİ: "MƏKTƏBLƏRDƏ DİN TƏDRİSİNDƏN QƏTİYYƏN SÖZ GETMİR, GEDƏ DƏ BİLMƏZ"



Səh. 8

MDTF-NİN DƏSTƏYİ İLƏ LƏNKƏRAN ŞƏHƏRİNDƏN OLAN ŞƏHİDLƏRİN AİLƏ ÜZVLƏRİNİN ŞUŞAYA SƏFƏRİ TƏŞKİL EDİLİB



Səh. 11

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



İyulun 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Belçika Federal Parlamentinin Nümayəndələr Palatasının yəhudi əsilli deputatı Mixael Fraylix və jurnalist Nexama Blox ilə görüşüb.

Ölkəmizdəki din siyasəti barədə qonaqlara geniş məlumat verən Mübariz Qurbanlı bildirib ki, Azərbaycanda multikultural və tolerant dəyərlərin, dini müxtəlifliyin, məzhəblərarası vəhdətin qorunması sahəsində məqsədyönlü dövlət siyasəti aparılır. Ölkəmizdə 995 dini icma qeydiyyatdan keçib. Onlardan 958-i İslam, 37-si isə qeyri-islam təmayüllüdür. Prezident İlham Əliyevin sərəncamları ilə ölkəmizdəki dini qurumlara maliyyə yardımının göstərilməsi dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədini daşıyır. Bu da dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşməsinə, dini müxtəlifliyin qorunmasına və dinlərarası qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir.

Görüş zamanı azərbaycanlılar ilə yəhudilərin birgəyaşayış tarixinin yüzilliklərə söykəndiyini, ölkəmizdə yaşayan yəhudilərin respublikanın siyasi, iqtisadi, sosial, mədəni həyatında aktiv fəaliyyət göstərdiklərini vurğulayan M.Qurbanlı yəhudi dini icmalarına olan diqqət və qayğıya toxunub.

Fərqli mədəniyyətləri və dini irsi qoruyub saxlamağın dövlətin əsas prioritetlərindən biri olduğunu diqqətə çatdıran Komitə sədri Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun sinaqoqların tikinti və təmirinə öz töhfəsini verdiyini qeyd edib. Hazırda ölkəmizdə yəhudilərə məxsus 7 sinaqoq, 8 dini icmanın və məktəbin fəaliyyət göstərdiyini bildirib.

Ölkəmizə səfərindən məmnunluqla danışan Mixael Fraylix qeyd edib ki, Azərbaycanda dini etiqad azadlığına təkcə sözdə yox, həm də praktikada geniş imkanlar yaradılıb və Azərbaycan bu aspektdən dünyanın bir çox dövlət və cəmiyyətlərinə nümunə ola biləcək bir ölkədir. Qlobal təhlükəsizlik naminə əməkdaşlığın vacibliyini vurğulayan qonaq dünya miqyasında ümumbəşəri dəyərlərin, multikulturalizm, həmrəylik ideyalarının təbliğində əməkdaşlığın önəminə diqqət çəkib.

Qeyd edək ki, görüşdə Milli Məclisin Azərbaycan-Belçika parlamentlərarası işçi qrupunun rəhbəri deputat Kamal Cəfərov da iştirak edib. M.Fraylix və N.Blox Belçikada yəhudi icması ilə bağlı yerli və xarici xəbərləri işıqlandıran, görkəmli şəxsiyyətlər ilə müsahibə və analitik məlumatlar dərc edən aylıq "Joods Actueel" aparıcı yəhudi jurnalının tərtibatçılarıdır. Səfərin məqsədi ölkəmizdəki yəhudilərin irsi və yaşayış tərzi ilə tanış olmaq, Azərbaycandakı tolerant və multikultural ənənələr barədə məqalə hazırlamaq, o cümlədən yəhudilərin kompakt yaşadığı Qırmızı qəsəbə və digər yerlərdə onların həyat tərzini əks etdirən fotolardan ibarət sərginin keçirilməsidir.

Qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirə edildiyi görüşün sonunda qonaqlara DQİDK-nın xarici dillərdə nəşr etdirdiyi, Azərbaycanın tolerantlıq mühitindən bəhs edən kitablar təqdim edilib.

***

İyulun 7-də isə DQİDK sədri Mübariz Qurbanlı Komitənin tabeliyindəki Azərbaycan İlahiyyat İnstitutunda (AİI) təhsilini başa vuran, Gürcüstan vətəndaşı olan azərbaycanlı tələbələrlə görüşüb.

Soydaşlarımıza təbriklərini çatdıran DQİDK sədri onlara bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıb, məzunlara tövsiyələr verib. M.Qurbanlı bildirib ki, hazırda dünyada İslam dinini radikalizmə sürükləmə meyilləri artmaqdadır. Bu səbəbdən İslam dini və onun ali dəyərlərindən siyasi məqsədlərlə istifadə edilməsinin qarşısının alınması, dinin həmrəylik, vəhdət kimi dəyərlərinin təbliğ edilməsi olduqca aktualdır. Komitə sədri vurğulayıb ki, İslamda həmrəyliyi pozan qüvvələrə və onun



əsas prinsiplərindən uzaqlaşanlara qarşı mübarizədə din xadimləri də xüsusi fəallıq nümayiş etdirməlidirlər. O, məzunların sözügedən məqamlara xüsusi diqqət yetirəcəklərinə ümidvar olduğunu bildirərək bundan sonra dini sahədə fəaliyyətlərini Gürcüstanda davam etdirəcək gənc din xadimlərinə uğurlar diləyib.

Görüşdə iştirak edən Dövlət Komitəsi sədrinin müavini Sahib Nağıyev, AİI-nin rektoru Aqil Şirinov, Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) icraçı direktoru Mehman İsmayılov və Komitənin Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova da məzunlara öz təbriklərini çatdıraraq müvafiq tövsiyələrini veriblər.

Soydaşlarımız müasir standartlar və dünya təcrübəsi əsasında təşkil edilən təhsil prosesindən məmnunluqlarını ifadə edib, göstərilən diqqətə və yaradılan şəraitə görə ölkə rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, AİI-də təhsilin bütün pillələri dövlət sifarişi əsasında həyata keçirilir. Tələbələr təhsil aldıqları müddətdə təqaüdlə təmin olunurlar. Həmçinin təhsilalanlar MDTF tərəfindən ödənilən Ümummilli Lider Heydər Əliyev adına, Qafqaz Müsəlmanları İdarəsinin təsis etdiyi Şeyxülislam və akademik Vasim Məmmədəliyev adına təqaüdlərdən, eləcə də MDTF-nin tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə ayırdığı maddi yardımdan yararlana bilirlər.

***

Daha bir görüş iyulun 11-də DQİDK sədri Mübariz Qurbanlı ilə Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin arasında baş tutub.

Qarşılıqlı hörmətə əsaslanan Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələrinə toxunan Komitə sədri Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Vatikana rəsmi səfərlərinin, eləcə də Roma papası II İoann Pavel və Papa Fransiskin Azərbaycana səfərlərinin bu əməkdaşlığın daha da dərinləşməsinə xidmət etdiyini bildirib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun layihələri sayəsində Vatikanda bir çox tarixi abidələrin, o cümlədən katakombaların bərpasına nail olunmasının xalqımızın ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətini ifadə etdiyini vurğulayıb. İkitərəfli əlaqələrimizin Azərbaycandakı katolik



icmasına münasibətdə də özünü göstərdiyini qeyd edən Komitə sədri Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə katolik məbədinin tikilməsi üçün torpaq sahəsi ayrıldığını, bu kilsənin hazırda paytaxtımızın görünüşünə xüsusi gözəllik verdiyini qeyd edib.

Daha sonra ölkəmizdəki tolerant və multikultural mühitdən söhbət açan M.Qurbanlı bildirib ki, Azərbaycanın dövlət-din münasibətləri modelini möhkəmləndirən amillər içərisində dini müxtəlifliyin və mütərəqqi dini dəyərlərin qorunması, dinlərarası dialoqun inkişafı mühüm yer tutur. Dini sahədə dövlət siyasəti dünyəvilik, vicdan və dini etiqad azadlığı, dinlərin bərabərliyi kimi prinsiplərə əsaslanır. Xristianlığın Azərbaycanda çox qədim tarixə malik olduğunu bildirən M.Qurbanlı bölgəmizdə ilk xristian kilsələrinin Qafqaz Albaniyası dövləti tərəfindən inşa edildiyini qeyd edib. O, ölkəmizdə rəsmi olaraq 26 xristian dini icmanın qeydiyyatdan keçdiyini, 16 kilsənin fəaliyyət göstərdiyini, mütəmadi olaraq dini ibadətgahların inşa və əsaslı bərpa edildiyini, "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" da daxil olmaqla dini qurumlara maliyyə yardımları ayrıldığını deyib. Dövlət Komitəsinin Azərbaycandakı katolik icması ilə yaxından əməkdaşlıq etdiyini vurğulayıb.

44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərimiz barədə də danışan Dövlət Komitəsinin sədri Bakının mərkəzində erməni kilsəsinin qorunub-saxlanılmasına diqqət çəkib. DQİDK sədri bu tolerantlığın müqabilində Ermənistan tərəfinin işğaldan azad olunmuş ərazilərimizdə mədəniyyət abidələrimizi, o cümlədən məscidlərimizi dağıtdıqlarını qeyd edib.

Səfəri çərçivəsində Prezident İlham Əliyev tərəfindən qəbul edilməsindən məmnunluğunu ifadə edən Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin Azərbaycanın təqdim etdiyi tolerantlıq və birgəyaşayış nümunəsinin önəmini vurğulayıb. Həmçinin Heydər Əliyev Fondunun bəşəri missiyasına toxunan qonaq dövlətimizin katolik icmasına göstərdiyi qayğını, insanların mənəvi ehtiyaclarının ödənilməsinə yaradılan şəraiti yüksək qiymətləndirib.

Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda fövqəladə və səlahiyyətli səfiri İlqar Muxtarovun da iştirak etdiyi görüşün sonunda qonağa Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən bəhs edən kitablar təqdim edilib.

***

İyulun 12-də DQİDK-da Azərbaycanda səfərdə olan Avropa Ravvinləri Konfransı Təşkilatının icraçı direktoru Qadi Qroniç ilə görüş keçirilib.

Komitə sədrinin müavini Səyavuş Heydərov ölkəmizdə din-dövlət münasibətlərinin vəziyyəti, multikultural dəyərlərə verilən önəm və nümunəvi tolerantlıq mühiti

davamı səh. 3

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR

əvvəli səh. 2



barədə danışıb. Bildirib ki, bu gün öz geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək istəyən qüvvələr dini siyasiləşdirməyə çalışırlar. Bu fəaliyyət müəyyən regionlarda acınacaqlı nəticələrə gətirib çıxarıb. Sözügedən proseslərin artım dinamikası fonunda dinlərarası əməkdaşlıq və dialoqun vacibliyini vurğulayan sədr müavini Azərbaycanın bu sahədə əldə etdiyi uğurların və müsbət təcrübənin dünyada təşviqinin önəminə toxunub.

Avropa Ravvinləri Konfransı Təşkilatının icraçı direktoru Qadi Qroniç ölkəmizə səfərinin məqsədi barədə ətraflı məlumat verib. O, bu gün Azərbaycanın sərgilədiyi tolerantlıq modelinin regionda və dünyada sabitliyə, təhlükəsizliyə, etnomədəni müxtəlifliyin qorunmasına, mədəniyyətlərin dialoquna qarşı yönəldilmiş bir çox təhdidlərə layiqli humanitar cavab olduğunu qeyd edib. Həmçinin ölkəmizdə yəhudi icmasına və digər dini konfessiyalara göstərilən diqqət və qayğıdan məmnun qaldığını bildirib.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb, DQİDK ilə Avropa Ravvinləri Konfransı Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

***

İyulun 17-də isə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda səfərdə olan Rumıniyanın Müsəlman icmasının müftisi Murat



Yusufu qəbul edib.

Görüş zamanı Komitə sədri Azərbaycan və Rumıniya arasındakı uğurlu münasibətlərə diqqət çəkərək iki ölkənin beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığını vurğulayıb.

Daha sonra qonağa Dövlət Komitəsinin fəaliyyəti, nümunəvi dövlət-din münasibətləri, dinlərarası harmoniya, eləcə də dinə dövlət qayğısı barədə məlumat verən Mübariz Qurbanlı bildirib ki, tarixən çoxmədəniyyətli və tolerant ənənələrlə zəngin cəmiyyəti olan Azərbaycan dövləti bu dəyərləri möhkəmləndirmək siyasətini həyata keçirir. Ölkəmizdə məscid, ziyarətgah, kilsə və sinaqoqların inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayrılır, eyni zamanda, hər iki müsəlman və qeyri-müsəlman dini icmalarına dövlət büdcəsindən maliyyə yardımı göstərilir. Dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi dəyərlərini, mədəniyyətini, dilini qoruyub-saxlamaq imkanına malikdir. O, həmçinin Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyət istiqamətləri haqqında danışaraq onların yaradılmasının sağlam dini mühitin bərqərar olması üçün geniş imkanlar açdığını diqqətə çatdırıb.

Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu ifadə edən Rumıniyanın Müsəlman icmasının müftisi Murat Yusuf ölkəsindəki dini mühit, müsəlman icmasının fəaliyyəti barədə danışıb. Azərbaycanda mədəni müxtəliflik, tolerantlıq və multikulturalizm kimi məsələlər üzrə fəal iş aparıldığını qeyd edən müfti görüşün iki ölkə arasında müvafiq sahədə fikir mübadiləsi aparılması üçün əhəmiyyətini vurğulayıb. Komitə rəhbərliyini əməkdaşlığın daha da dərinləşməsi üçün Rumıniyaya dəvət edib.

Rumıniya Parlamentinin üzvü, Parlamentdəki Tatar icmasının nümayəndəsi Amet Varol, Türk-Müsəlman Tatarlarının Demokratik Birliyinin vitse-prezidenti Arslan Özgün və Rumıniyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vasile Soarenin də iştirak etdiyi görüşün sonunda qonaqlara ölkəmizin tolerant və multikultural mühitindən, dinə dövlət qayğısından bəhs edən kitablar hədiyyə edilib.

***

İyulun 24-də isə Dövlət Komitəsinin sədri Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti Ayman Matsyek ilə görüşüb.

Komitə sədri ölkəmizdə dini sahədə həyata keçirilən uğurlu siyasət barədə məlumat verərək, demokratik inkişaf yolunu seçmiş, multikultural mühiti və tolerantlığı ilə tanınan Azərbaycan üçün dini etiqad azadlığının ölkənin daxili siyasətinin prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan hökuməti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının ayrılmaz bir hissəsi kimi yanaşır. Azərbaycan Respublikasının Konstitusiyası, "Dini etiqad azadlığı haqqında" Qanun və digər sənədlər Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının hüquqi əsasları kimi çıxış edirlər.

Azərbaycanda dövlət-din münasibətlərinin uğurundan danışan Mübariz Qurbanlı qeyd edib ki, ölkəmizdə dini məsələlərlə bağlı düzgün siyasət aparılır. Müstəqil Azərbaycan dövlətinin qurucusu olan Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkəmizdə dövlət-din münasibətləri beynəlxalq hüququn normalarına uyğun olaraq tənzimlənib, eləcə də icmalar arasında tolerantlıq mühitinin qorunub saxlanılması üçün hüquqi baza yaradılıb. Azərbaycanda dövlət-din münasibətlərinin modeli zamanın tələblərinə uyğun olaraq Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.



Söhbət zamanı M.Qurbanlı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni işğalçıları üzərində Azərbaycanın qələbəsi ilə nəticələnən 44 günlük müharibədən sonra işğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən vandalizm aktlarına məruz qalmış tarixi dini abidələrin dövlət tərəfindən bərpa edilməsi istiqamətində görülən işlərdən danışıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti Ayman Matsyek Azərbaycandakı dini rəngarənglik, multikultural və həmrəylik mühitinin əhəmiyyətli rolundan danışıb, ölkəmizdə tolerant dəyərlərin qorunması və təşviqi istiqamətində həyata keçirilən siyasəti təqdir etdiyini qeyd edib.

Həmçinin görüşdə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb, qonağa Dövlət Komitəsinin alman dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən bəhs edən kitablar təqdim edilib.

Qeyd edək ki, Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti Ayman Matsyekin səfəri Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə baş tutub.

***

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı iyulun 28-də Türkiyənin Diyanət İşləri İdarəsinin sədr müavini Səlim Argun ilə görüşüb.



Bütün sahələrdə yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinə diqqət çəkən Komitə sədri iki qardaş ölkə arasında doğma münasibətlərin bütün müstəvilərdə özünü doğrultduğunu bildirib.

Daha sonra Dövlət Komitəsinin sədri nümunəvi dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud olan tolerantlıq mühiti, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq haqqında, eləcə də bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, həmçinin, din sahəsində kadrların hazırlanması və Azərbaycan İlahiyyat İnstitutunun bu yöndə fəaliyyəti barədə məlumat verib.

Ölkəmizə səfər etməsindən məmnunluğunu ifadə edən Türkiyənin Diyanət İşləri İdarəsinin sədr müavini Səlim Argun iki ölkə arasında dini-mənəvi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb. Bu münasibətlərin daha da intensivləşdirilməsində Dövlət Komitəsi və Diyanət İşləri İdarəsinin birgə fəaliyyət göstərməsinin zəruriliyini qeyd edib.

Türkiyənin Azərbaycandakı Səfirliyinin dini işlər üzrə müşaviri İhsan Açıkın da iştirak etdiyi görüşdə həmçinin, 44 günlük Vətən Müharibəsi zamanı qardaş Türkiyənin güclü siyasi və mənəvi dəstəyi, işğaldan azad olunmuş ərazilərimizin bərpası xüsusi olaraq vurğulanıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ İSMAYILLIDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iyulun 12-də İsmayıllı, Ağsu, Şamaxı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Qəbula gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təyinatlı ədəbiyyatın nəşri, İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.



# BAKIDA "MEDİA VƏ DİNİ TƏHLÜKƏSİZLİK" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB

İyulun 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər çərçivəsində Milli Mətbuat Gününə həsr olunmuş "Media və dini təhlükəsizlik" mövzusunda konfrans keçirilib.

Milli Məclisin deputatlarının, Dövlət Komitəsinin və media orqanlarının rəhbər şəxslərinin, habelə dini icma və digər ictimaiyyət nümayəndələrinin iştirakı etdiyi



tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın ruhu bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən DQİDK sədri Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər çərçivəsində keçirilən konfransın əhəmiyyətinə toxunaraq, ölkəmizdə dövlət-din siyasətinin dünyəvilik, dini dəyərlər arasında harmonik birgəyaşayış, tolerantlıq və multikulturalizm, qarşılıqlı hörmət və İslamda vəhdət prinsipləri fonunda həyata keçirilməsindən danışıb. Bildirib ki, dövlət-din münasibətlərinin əsası Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilib. Azərbaycanda dövlət-din münasibətləri "Dini etiqad azadlığı haqqında" Qanunla tənzimlənir, Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən siyasətdə dövlət-din modeli və qarşıda duran vəzifələr hər zaman diqqət mərkəzində olur.

M.Qurbanlı cəmiyyətin həyatında medianın mühüm roluna diqqət çəkib. İdeoloji sahədə mübarizənin gücləndirilməsində, dini xurafata qarşı təbliğatda medianın



önəminə toxunub. Vurğulayıb ki, heç bir müqəddəs kitab insanlar arasında münasibətlərə xələl gətirən çağırışlar etmir. Bütün dinlər insanları dostluğa, qardaşlığa çağırır. O bildirib ki, dindən sui-istifadə hallarının qarşısının alınmasının ən başlıca yolu düzgün məlumatları çatdırmaqdadır. Dindən sui-istifadə edən radikal qrupların ifşası, cəmiyyətə onların işlərinin bəşəriyyət üçün təhlükəsini çatdırmaq baxımından medianın rolu olduqca böyükdür.

Azərbaycan mətbuatının çox böyük yol keçdiyini söyləyən Mübariz Qurbanlı qeyd edib ki, media artıq insanlar arasında kommunikasiya rolu oynamaqdadır. Bu gün insanlar informasiyaya asanlıqla çata bilirlər. Cəmiyyətimizdəki bütün məsələlərin həllində Azərbaycan mediası çox əhəmiyyətli rol oynayır.

Sonra Mətbuat Şurası sədrinin müavini, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu "Mediada dini mövzularda manipulyasiyalar" mövzusunda təqdimatla çıxış edib.

Daha sonra Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Real TV-nin baş direktoru Mirşahin Ağayev, Milli Məclisin deputatı Sahib Alıyev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Bəxtiyar Nəcəfov mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Bildirilib ki, Azərbaycanda bütün ənənəvi dinlərin ibadət yerləri - məscidlər, kilsələr, sinaqoqlar və sair vardır və insanlar sərbəst şəkildə ibadətlərini, dini ayinlərini yerinə yetirə bilirlər. Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində medianın rolu böyükdür.

Çıxış edənlər dindən sui-istifadə cəhdlərinin qarşısının alınmasında mətbuatın fəaliyyətinin önəminə diqqət çəkiblər.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Milli Mətbuat Günü münasibətilə jurnalistlər arasında "Media və dini təhlükəsizlik" mövzusunda keçirilmiş yazı müsabiqəsinin qaliblərinə mükafatlar təqdim edilib.



**Siyahını təqdim edirik:**

I yer - Tərgül Ağayeva, Azərbaycan Dövlət İnformasiya Agentliyi

II yer - Cavid Əkbərov, "İki sahil" qəzeti

II yer - Elçin Bayramlı, "Səs" qəzeti

III yer - Samirə Abdullayeva, "Report" İnformasiya Agentliyi

III yer - Yeganə Quliyeva, Teleqraf

III yer - Günay Elşadqızı, APA

**Həvəsləndirici mükafata layiq görülənlər:**

1. Aytən Abdulova - Azərbaycan Televiziyası
2. Sayad Həsənli - Oxu.az
3. Pərviz İsmayılov - "Yeni Azərbaycan" qəzeti
4. Mirmahmud Kazımov - Report İnformasiya Agentliyi
5. Elçin Mehdiyev - Trend İnformasiya Agentliyi
6. İlkin Nəcəfzadə - Azvision.az
7. Seymur Əliyev - Moderator.az
8. İsgəndər Həsənov - "525-ci qəzet"
9. Aqil Bəkir - Yeniçağ İnformasiya Agentliyi

# BMT BAŞ ASSAMBLEYASI MÜQƏDDƏS KİTABLARIN TƏHQİRİNİ PİSLƏYƏN QƏTNAMƏ QƏBUL EDİB

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası dinlərarası dialoqu təşviq etmək üçün qətnamə qəbul edib.

Bu barədə Baş Assambleyanın rəsmi nümayəndəsi Polina Kubiyak məlumat verib.

Kubiyak bildirib ki, qətnamədə müqəddəs kitablara qarşı hər hansı bir təhqir qəti şəkildə pislənilir və beynəlxalq hüququn pozulması hesab olunur.

Dialoqu təşviq etmək və nifrət nitqinə qarşı mübarizə məqsədi daşıyan sənəddə BMT ölkələrinin insanlara qarşı dini zəmində hücumları, habelə onların dini simvollarına, müqəddəs kitablarına, evlərinə, bizneslərinə, əmlaklarına, məktəblərə, mədəniyyət mərkəzlərinə qarşı yönəlmiş analoji hərəkətlərinin beynəlxalq hüquq normalarını pozaraq, kəskin şəkildə pislənildiyi ifadəsi yer alıb.

# KƏBƏNİN ÖRTÜYÜ YENİLƏNİB



Kəbənin köhnə örtüyü, hər il olduğu kimi, çıxarılaraq yenisi ilə əvəzlənib.

Səudiyyə Ərəbistanının SPA agentliyi xəbər verib ki, dəyişdirmə işləri xüsusi qrup tərəfindən həyata keçirilib.

Ümumilikdə 45 hissədən ibarət olan Kəbə örtüyü 850 kiloqram xalis ipək parça üzərində motiv və xətlər üçün işlənən 120 kiloqram qızıl və 100 kiloqram gümüşdən ibarətdir.

Kəbənin örtüyü ənənəvi olaraq hər hicri ilinin birinci günü, məhərrəm ayının 1-də dəyişdirilir. Örtük Məkkədəki Kral Əbdüləziz Kəbə Örtük Kompleksində 200 mütəxəssis tərəfindən hazırlanır.

# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"








İyulun 12-14-də Lənkəran şəhərində "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans keçirilib.

Konfransın birinci günü Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı, Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, rayonun idarə və təşkilatlarının rəhbər şəxslərinin iştirak etdiyi tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Tədbiri giriş sözü ilə açan Lənkəran ŞİH-in başçısı Taleh Qaraşov milli-mənəvi dəyərlərimizin bərpasının, dövlət-din münasibətlərinin formalaşdırılmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Natiq bu gün respublikamızda dini dəyərlərə hörmətlə yanaşıldığını, tolerantlıq modelinin mövcud olduğunu da diqqətə çatdırıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycanın ən yeni tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərinin şahidi oluruq. Ümummilli Lider xalqımızın azərbaycançılıq ideologiyasının əsasında gələcəyə gedən yolunu böyük uzaqgörənliklə müəyyən edib. Milli-mənəvi, o cümlədən dini dəyərlərimizə qayıdışın Azərbaycan xalqı üçün gərəkliliyini nəzərə alan Ümummilli Liderimizin bu sahədə əvəzsiz işlər gördüyünü söyləyən S.Salahlı onu da vurğulayıb ki, hazırda Prezident İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atırlar.

DQİDK sədrinin birinci müavini deyib ki, xalqımızın minilliklər boyu formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, eləcə də təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır: "Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də bu istiqamətdə üzərinə düşən missiyanı uğurla davam etdirir", - deyə sədrin birinci müavini əlavə edib.

S.Salahlı dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, həmçinin milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə də danışıb. Bu istiqamətdə görülən işlərdən bəhs edib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev və Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı (QMİ) Qəni Axundzadə, Rayon Ağsaqqallar Şurasının sədr müavini Güloğlan Bağırov, Lənkəran ŞİH yanında İctimai Şuranın sədri, "Lənkəran" qəzetinin baş redaktoru Əlimərdan Əliyev isə çıxışlarda vurğulayıblar ki, Azərbaycanın bütün bölgələri kimi, Lənkəran rayonu da hər bir sahədə özünün müasir inkişaf dövrünü yaşayır. Rayonda bütün vətəndaşlara adət-ənənələri və dini ayinlərinin icrası üçün lazımi şərait yaradılıb.

Tədbir çərçivəsində kitab sərgisi keçirilib.

Konfransın ikinci günündə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Milli Məclisin deputatı Cavanşir Paşazadə, Lənkəran ŞİH başçısının müavini Mikayıl Cəfərzadə, təhsil ictimaiyyətinin nümayəndələri, eləcə də gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan ŞİH başçısının müavini Mikayıl Cəfərzadə dinə dövlət qayğısından danışaraq vurğulayıb ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində rayonun bir çox dini-tarixi memarlıq abidələri əsaslı şəkildə yenidən qurulub.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov respublikamızda həyata keçirilən din siyasətinin əsas mahiyyətinin dini etiqad, vicdan azadlığının təmin edilməsi olduğunu qeyd edib. Bildirib ki, bununla yanaşı, konfessiyalararası münasibətləri, dinlərarası dialoqu, tolerantlıq mühitini qoruyub saxlamaq əsas prioritet istiqamətlərdən biridir. "Ümummilli Liderimiz Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də tam hüquqi qanunvericilik bazası formalaşdırılıb", – deyə, sədr müavini əlavə edib.

Dövlətin dinə və dindarlara qayğısından bəhs edən G.İsmayılov deyib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, ölkəmizdə tarixən mövcud olan tolerantlıq ənənələrinin qorunması və təşviqi, eyni zamanda dini radikalizm və dini ekstremizmlə ideoloji müstəvidə effektiv mübarizənin aparılması məqsədilə silsilə tədbirlər həyata keçirilir. Müasir cəmiyyətdə dini dəyərlərin düzgün təbliğində, eləcə də dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır. Natiq yad dini-ideoloji təsirlərin qarşısının alınması istiqamətində ənənəvi İslam dəyərlərinin təbliğinin mühüm rol oynadığını da qeyd edib. Onun sözlərinə görə, ənənəvi İslam dininin siyasiləşməsinə, bölücülüyə haqq qazandırmır və dinin siyasiləşdirilməsi yolverilməzdir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Cavanşir Paşazadə ölkəmizdə hökm sürən dövlət-din siyasətinə diqqət çəkərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi və dini durum sabitdir, respublikamız dünyaya multikulturalizm ixrac edən ölkə kimi tanınmaqdadır. C.Paşazadə Ümummilli Lider Heydər Əliyevin və cənab Prezident İlham Əliyevin ardıcıl səyləri ilə möhkəm əsaslar üzərində qurulmuş sabit dövlət-din münasibətlərinin daha da inkişaf etdirilməsi, din sahəsində vəhdətin, tolerant münasibətlərin və dinlərarası dialoqun təmin olunması istiqamətində görülən işlərdən bəhs edib.

Lənkəran-Astara Regional Təhsil İdarəsinin Lənkəran rayonu üzrə Təhsil sektorunun müdiri Elman Rzayev, Lənkəran Dövlət Universitetinin prorektoru Kamran Kazımov mövzu ilə bağlı fikirlərini bölüşərək milli-ideoloji cəhətdən dövlətimiz və cəmiyyətimiz üçün mühüm strateji əhəmiyyət kəsb edən dini-ideoloji sahədə mövcud problemlər və əldə edilən uğurlardan danışıblar.

Konfransın işi müzakirələrlə davam etdirilib.

Regional konfrans iyulun 14-də öz işini davam etdirib. Ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini konfessiyalarının nümayəndələri, eləcə də rayonun idarə və təşkilatlarının məsul əməkdaşlarının iştirak etdiyi tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.

Tədbiri giriş sözü ilə açan Lənkəran ŞİH-in başçısı Taleh Qaraşov respublikamızda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə mənəvi irsin və dini dəyərlərin dirçəlişinə xüsusi diqqət və qayğının bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. ŞİH başçısı vurğulayıb ki, dini icmaların fəaliyyətinə mənəvi və maddi dəstəyin göstərilməsi dövlətin din siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov Azərbaycandakı tolerantlıq mühitinin dünyaya nümunə olduğunu bildirib, respublikamızda yaşayan bütün dinlərin və xalqların nümayəndələri arasında bir-birinə tolerant yanaşma olduğunu qeyd edib: "Müstəqil Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin qoyduğu yolun davamı olaraq dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vətəndaşların ölkədə dini etiqad azadlığını həyata keçirmələri üçün bütün şəraitin yaradılması, məscidlərin, ziyarətgahların tikilməsi, təmir-bərpası kimi məsələləri prioritet kimi müəyyənləşdiriblər". S.Heydərov onu da vurğulayıb ki, bu gün ölkəmizdə dini həmrəylik ən yüksək səviyyədə təzahür edir.

Ölkəmizə qarşı dini zəmində yönəlmiş təhdidlərin mövcud olduğunu deyən sədr müavini bəzi qüvvələrin Azərbaycanda dünyəviliyin zəiflədilməsi, dinin siyasiləşdirilməsi, məzhəbçilik meyillərinin gücləndirilməsi istiqamətində çalışdıqlarını diqqətə çatdırıb. "Dövlətimiz öz ideoloji sütunlarını qorumaq üçün kifayət qədər qüdrətə və imkanlara sahibdir", - deyə natiq əlavə edib. O, İslamın həqiqi mahiyyətinə uyğun olaraq təbliğ edilməsində din xadimlərinin də üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Milli Məclisin deputatı Rüfət Quliyev isə qeyd edib ki, dövlətimiz vətəndaşların vicdan azadlığının qorunması üçün üzərinə düşən bütün vəzifələri qətiyyətlə həyata keçirir. Millət vəkili vurğulayıb ki, bunun məntiqi nəticəsi olaraq ölkəmizdə dövlət-din münasibətləri müasir qanunvericilik səviyyəsində tənzimlənir, dini etiqad azadlığı tam qorunur.

QMİ-nin bölgə qazısı Qəni Axundzadə, "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov, "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumunun mətbuat katibi Toral Ağayev, Azərbaycan Yeparxiyasının nümayəndəsi Andrey Bezotosnıy, Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli, eləcə də "Alov" xristian dini icmasının sədri İdris Məmmədov çıxışlarında mövzunun əhəmiyyətini vurğulayaraq Azərbaycanda yaşayan müxtəlif millətlərin dini dözümlülük şəraitində özlərinin dini dəyərlərini qoruyub saxladıqları barədə danışıblar.

Üçgünlük konfrans müzakirələrlə başa çatıb.

davamı səh. 6

# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"







əvvəli səh. 5

“Müasir çağırışlar və qarşıda duran əsas hədəflər” mövzusunda keçirilən növbəti üçgünlük regional konfrans 25-27 iyul tarixlərində Gəncə şəhərində baş tutub.

DQİDK və Gəncə ŞİH rəhbərliyi, Milli Məclisin deputatı, Daxili İşlər Nazirliyinin (DİN) nümayəndəsi, idarə və təşkilatların rəhbər şəxslərinin iştirak etdiyi tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin Gəncə şəhərindəki abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, eyni zamanda ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbiri giriş sözü ilə Gəncə ŞİH-in başçısı Niyazi Bayramov açıb. N.Bayramov vurğulayıb ki, Ümummilli Liderimiz Heydər Əliyevin böyük dövlət idarəçiliyi təcrübəsi, yüksək bacarığı, uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərinin düzgün qurulması üçün zəruri addımlar atılıb. Ulu Öndərin bu sahədə həyata keçirdiyi siyasəti cənab Prezidentimiz İlham Əliyev uğurla davam etdirməkdədir.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Sahib Nağıyev bildirib ki, bəzən din altında ölkə əleyhinə, dövlətçiliyə qarşı təxribat xarakterli işlər görənlər olur. Dini siyasiləşdirərək təsir mexanizminə çevirirlər. S.Nağıyevin sözlərinə görə, bu cür təxribatlara əl atanlar vaxtında dəqiqləşdirilir və onların barəsində müvafiq tədbirlər görülür.

Diqqətə çatdırılıb ki, Dövlət Komitəsi ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması, müxtəlif dinlərə və məzhəblərə etiqad edən ölkə vətəndaşlarının qarşılıqlı hörmət və əməkdaşlıq ənənələrinin daha da gücləndirilməsi, həmçinin dinin siyasiləşdirilməsi, radikalizm və ekstremizmə qarşı ideoloji müstəvidə effektiv mübarizənin aparılması məqsədilə müxtəlif formatlarda silsilə maarifləndirici tədbirlər təşkil edir. Qeyd olunub ki, bu işdə müvafiq qurumlar, yerli icra hakimiyyəti orqanları ilə də yaxından əməkdaşlıq edilir.

Daha sonra çıxış edən Milli Məclisin deputatı, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev müstəqil Azərbaycanın qurucusu, dahi şəxsiyyət Heydər Əliyevin ölkəmizin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdiyini bildirib. Millət vəkili Ulu Öndərin bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldığını, eləcə də dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdiyini diqqətə çatdırıb.

Tədbirdə, həmçinin DİN-in nümayəndəsi Oqtay Tağıyev, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, QMİ-nin bölgə qazısı Tahir Abbasov çıxış ediblər. Çıxışlarda ölkədə dini mühitdə gedən proseslər, çağırışlar, təhdidlər və Azərbaycan dövlətinin bu istiqamətdə atdığı addımlar barədə danışılıb.

Tədbir çərçivəsində kitab sərgisi keçirilib və sənədli film nümayiş olunub.



Konfransın ikinci günündə DQİDK və Gəncə ŞİH-in rəsmi şəxsləri, şəhərdə fəaliyyət göstərən qurumların rəhbərləri, ictimaiyyət nümayəndələri, gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov Dövlət Komitəsinin kompleks şəkildə həyata keçirdiyi maarifləndirmə tədbirlərinin əhəmiyyətini diqqətə çatdırıb.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə çıxış edərək ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi dəyərlərimizin təbliği, eləcə də dini radikalizmlə mübarizə sahəsində görülən işlər haqqında danışıb. Komitə rəsmisi ölkəmizdəki dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını diqqətə çatdırıb. C.Əlifzadə müasir dövrün çağırışları və qarşıda duran vəzifələr barədə tədbir iştirakçıları ilə fikirlərini bölüşüb. Qeyd edib ki, Azərbaycan dövlətinin din siyasətinin əsas məqsədi dini etiqad azadlığının təmin edilməsi, dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınmasıdır. Eyni zamanda natiq onu da vurğulayıb ki, gənclər dini radikalizm və ekstremizmin təsirinə düşməmək üçün təhsilə, elmə böyük önəm verməli, din haqqında bilgiləri düzgün mənbədən almalı, milli-mənəvi dəyərlərimizə bağlı olmalıdırlar.

Gəncə ŞİH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Abuzər Zeynalov çıxışında bölgədəki dini durum barədə məlumat verib, ölkəmizdə müxtəlif dini konfessiyaların sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini, onların dilinə, dininə, mədəniyyətinə xalqımız tərəfindən daim yüksək qiymət verildiyini bildirib. Vurğulayıb ki, bu gün respublikamızda insan hüquq və azadlıqlarının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına və tolerantlıq ənənələrinin möhkəmləndirilməsinə böyük önəm verilir.

Gəncə-Daşkəsən Regional Gənclər və İdman Baş İdarəsinin rəisi İntiqam Hüseynov çıxışında regionlarda keçirilən bu cür konfransların gənc nəslin ənənəvi dini və milli dəyərlərimizi, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasında xüsusi rola malik olduğunu vurğulayıb.

Maarifləndirici sənədli filmin də nümayiş olunduğu konfrans çərçivəsində kitab sərgisi təşkil olunub.

Üçgünlük regional konfrans iyulun 27-də öz işini davam etdirib.

İctimaiyyət nümayəndələri, din xadimləri və ziyalıların iştirak etdiyi tədbiri giriş sözü ilə açan Gəncə ŞİH başçısının müavini Adil Tağıyev şəhərdə dini durumun sabit olduğunu bildirib. A.Tağıyev Gəncədəki bütün dinlərin və məzhəblərin nümayəndələrinin sülh, qardaşlıq şəraitində yaşadığını vurğulayıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı respublikamızda dövlət-din münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu, həmçinin Azərbaycanda tolerant, multikultural mühitin hökm sürdüyünü bildirib.

Dini fanatizm, radikalizm və ekstremizmə qarşı mübarizə tədbirlərindən də danışan DQİDK sədrinin birinci müavini din xadimlərinin bu istiqamətdə fəallıq nümayiş etdirməli olduqlarını diqqətə çatdırıb.

Qeyd olunub ki, hər bir vətəndaş, həmçinin dindarlar qanunlara hörmətlə yanaşmalı, qanundan irəli gələn prinsiplərə riayət etməlidirlər. O da vurğulanıb ki, bütün dini icmaların azad fəaliyyətinə tam şərait yaradılıb, bu da Azərbaycanı tolerantlıq baxımından dünyanın ən qabaqcıl ölkələri sırasına yüksəldir.

Milli Məclisin deputatı Müşfiq Cəfərov isə qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət, o cümlədən ictimai-siyasi həyatdakı sabitlik din sahəsində də özünü büruzə verir. Millət vəkilinin sözlərinə görə, respublikamızda hökm sürən ictimai-siyasi sabitlik vətəndaşlarımızın təhlükəsiz və rahat həyatının təmin edilməsinin əsasını təşkil edir.

Gəncə şəhər Ağsaqqallar Şurasının sədri Nurəddin Məmmədov, QMİ-nin bölgə qazısı Tahir Abbasov çıxışlarında milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılmasının vacib olduğunu qeyd ediblər. Çıxışlarda o da diqqətə çatdırılıb ki, bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Üçgünlük konfrans müzakirələrlə yekunlaşıb.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN SEÇKİ KOMİSSİYASININ GÖRÜŞÜ TƏŞKİL OLUNUB

İyulun 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuraya seçkinin təşkili məqsədilə yaradılan Seçki Komissiyasının görüşü keçirilib.

Görüş çərçivəsində İctimai Şuraya seçkilərin təşkili və üzvlərin say həddinin müəyyən edilməsi, eləcə də seçki gününün müəyyən edilməsi məsələləri müzakirə edilib.

Dövlət Komitəsi sədrinin müavini, Seçki Komissiyasının sədr müavini Gündüz İsmayılov ötən dövr ərzində İctimai Şuraların fəaliyyəti və gündəlikdə duran məsələləri diqqətə çatdırıb. O bildirib ki, bu il vətəndaş cəmiyyəti institutlarının təmsilçiliyini genişləndirmək məqsədilə İctimai Şuranın üzvlərinin say həddinin 9 nəfər müəyyən olunması məqsədəuyğundur.

Qeyd edək ki, “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri və sahələri üzrə hüquqi aktların qəbulunda, ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsi ilə əlaqədar Komitə sədrinin əmri ilə DQİDK yanında İctimai şuranın formalaşdırılması üçün seçkilərin təşkili və keçirilməsi məqsədilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılıb.



# DÖVLƏT KOMİTƏSİNDƏ "İNSAN ALVERİ İLƏ MÜBARİZƏDƏ DİNİ İCMALARIN ROLU" MÖVZUSUNDA "DƏYİRMİ MASA" KEÇİRİLİB

İyulun 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin təşəbbüsü ilə "İnsan alveri ilə mübarizədə dini icmaların rolu" mövzusunda "dəyirmi masa" keçirilib.

Müsəlman və qeyri-müsəlman dini icma nümayəndələrinin iştirakı ilə baş tutan tədbiri DQİDK-nın sədr müavini Sahib Nağıyev açaraq mövzunun əhəmiyyətinə diqqət çəkib. Bildirib ki, insan alveri və ona qarşı mübarizə mühüm aktuallıq kəsb edən mürəkkəb məsələdir. Müasir dövrdə baş verən proseslər kontekstində din xadimlərinin, dini icma sədrlərinin insan hüquqlarının qorunmasına, insan alverinə qarşı mübarizəyə töhfə vermək imkanları genişdir və bu baxımdan onların üzərinə böyük məsuliyyət düşür. S.Nağıyev, eyni zamanda din xadimlərinin bu prosesə daha aktiv cəlb olunması istiqamətində addımlar atılacağını da vurğulayıb.



DQİDK-nın Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova isə çıxışında insan alveri ilə mübarizənin dini-mənəvi aspektlərinə toxunub. Qeyd edib ki, məcburi əmək, cinsi istismar, qadın və uşaq hüquqlarının pozulması, köləlik kimi halları ehtiva edən insan alverinə qarşı bütün səmavi dinlərin, o cümlədən İslamın mövqeyi olduqca sərtdir. Qadın və uşaqların hüquqlarının qorunması, insanların bərabərliyi, təhsilə verilən önəm və bu kimi digər çağırışlar İslam dininin təməl prinsiplərini təşkil edir. Şöbə müdiri, həmçinin Dövlət Komitəsinin bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirlərini vurğulayaraq din xadimlərinin moizə və xütbələrində mütəmadi olaraq sözügedən mənfi halların yolverilməzliyi barədə mövzulara toxunduqlarını bildirib.

Təşəbbüslərinin reallaşmasına verdiyi dəstəyə görə Dövlət Komitəsinə təşəkkürünü bildirən "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi barədə danışıb. Vurğulayıb ki, dövlətlə yanaşı, QHT-lər tərəfindən insan alveri qurbanlarının normal həyat tərzinə qaytarılması - reinteqrasiyası çərçivəsində onlara hüquqi yardım göstərilməsi, psixoloji reabilitasiyası üçün tədbirlər görülür. M.Zeynalova sözügedən prosesdə QHT və dini icmaların birgə əməkdaşlığının, din xadimlərinin mənəvi dəstəyinin vacibliyini xüsusi olaraq diqqətə çatdırıb.

Daxili İşlər Nazirliyinin şöbə rəisləri Ramil Kazımov və Rəşad Muradov Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən təsdiq edilən "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" və qanunvericilik aktları barədə danışıblar. Həmçinin din xadimlərinin erkən nikah hallarına qarşı mübarizədə aktivlik nümayiş etdirmələrinin vacibliyini vurğulayıblar.

BMqt-nin Azərbaycan nümayəndəliyinin əməkdaşı Anar İsgəndərov isə təmsil etdiyi qurum tərəfindən beynəlxalq səviyyədə insan alverinə qarşı mübarizə sahəsində aparılan layihələr barədə məlumat verərək icmaların bu prosesdə iştirakı haqqında dünya təcrübəsindən nümunələr gətirib.

QHT-lərə Dövlət dəstəyi Agentliyinin müşahidə Şurasının üzvü Zaur İbrahimli insan alverinə qarşı mübarizə prosesində QHT-lərin rolu barədə danışaraq din xadimləri ilə əməkdaşlığın gücləndirilməsi üçün bir sıra təkliflər səsləndirib.

Azərbaycan Uşaqları Birliyinin sədri Kəmalə Ağazadə, Ümidli Gələcək təşkilatının sədri Kəmalə Aşumova, Qadın Təşəbbüsü və Sosial Problemlərin həllinə Yardım İB-nin sədri Zenfira Mustafayevanın çıxışlarından sonra "dəyirmi masa" diskussiyalarla davam edib.

# DQİDK-NIN ŞÖBƏ MÜDİRİ: "DİNİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL DÖVLƏT İMTAHAN MƏRKƏZİ TƏRƏFİNDƏN APARILMALIDIR"

"Dini təhsil bu gün əsas prioritet istiqamətlərimizdən biridir. Dini duruma olduğu kimi, dini təhsil sahəsinə də mümkün qədər nəzarətin təmin edilməsi, habelə xarici təsirlərin dini təhsillə bağlı proseslərdən kənar tutulması olduqca vacibdir".

Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini təhsil şöbəsinin müdiri, dinşünas Elnarə Kərimova deyib.

Onun sözlərinə görə, Azərbaycanın yerləşdiyi region, bu regionun həssaslığı, kənar təsirlərin mövcudluğu, eyni zamanda ölkəmizdəki dini durum, tarixən formalaşmış tolerantlıq ənənələri və burada mövcud olmuş məzhəblərarası münasibətlər dini təhsil sahəsinə ölkəmizin hərtərəfli təhlükəsizliyi prizmasından baxılmasını zəruri edir:

"Dövlət-din münasibətlərinin daha effektiv şəkildə tənzimlənməsi, dövlətin din siyasətinin uğurla həyata keçirilməsi, xarici dövlətlərin dini duruma təsirinin qarşısının alınması, dindarlar arasında və cəmiyyətdə müasir dünyagörüşünün təlqin edilməsi, eləcə də dünyəvi dövlətin əsaslarının düzgün təbliğ olunması üçün ixtisaslı dini kadrların hazırlanması ən vacib məsələlərdən biridir. Hazırda dini təhsilin keyfiyyətcə yeni mərhələyə qaldırılması ölkəmizin həm daxilə, həm də xaricə yönəlik məqsədlərinin reallaşdırılması üçün prioritet milli hədəf kimi qiymətləndirilə bilər.

2018-ci ildə Prezident İlham Əliyevin sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldıqdan sonra dini təhsil sahəsində yeni mərhələyə qədəm qoyuldu. Ötən müddət ərzində İnstitut formalaşma dövrü keçib və bu formalaşma dövründə artıq öz məzunlarını verib. Hətta məzunlarının bir qismi təyinat da alıb. Bütün bunlar onu göstərir ki, İlahiyyat İnstitutu etimadı və ona bəslənən ümidləri doğruldur və doğrultmaqda davam edəcək. İlahiyyat İnstitutunu digər universitet və institutlardan, digər ali təhsil müəssisələrindən fərqləndirən bir meyar da onun kadr yetişdirməklə yanaşı, həm də cəmiyyətimizin maarifləndirilməsində iştirakıdır. Bu baxımdan hesab edirəm ki, İlahiyyat İnstitutunun qəzetinin, jurnalının, eyni zamanda internet televiziyasının olması çox önəmlidir. İnstitutda təhsil iki istiqamətdə islamşünaslıq və dinşünaslıq üzrə həyata keçirilir. Bakalavr pilləsində 289 (dinşünaslıq 137 və islamşünaslıq 152), magistraturada 11, doktoranturada 5 nəfər, dissertantura pilləsində 1 nəfər olmaqla 306 tələbə və peşə hazırlığı kursunda 50 tələbə təhsil alır. Həmçinin bakalavriat səviyyəsində 14 əcnəbi tələbə təhsil alır, onlardan 11-i Gürcüstandan, 3-ü Türkiyədəndir".

Elnarə Kərimova bildirib ki, dini orta ixtisas təhsili müəssisələrinə, yəni mədrəsə, İslam kolleclərinə gəlincə, hazırda ölkədə 5 dini orta ixtisas təhsil müəssisəsi - Lənkəran İslam Kolleci, Şəki İslam Kolleci, Əliabad İslam Kolleci, Zaqatala İslam Kolleci və Şəbnəm (qızlar) İslam Kolleci fəaliyyət göstərir:

"Dini etiqad azadlığı haqqında" qanuna əsasən, dini təhsil müəssisələri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçməklə yanaşı, xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərməli və onlara qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmalıdır. Lakin Qafqaz Müsəlmanları İdarəsinin təsisçisi olduğu və Gənclərə Yardım Fondunun himayəsi altında fəaliyyət göstərən bu kolleclər lisenziya almadıqlarına görə oraya qəbul da Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmir. Bu da cari ildən həmin kolleclərə qəbul olan şəxslərin diplomlarının etibarsız hesab ediləcəyi deməkdir. Bununla bağlı həmin kolleclər artıq rəsmi olaraq məlumatlandırılıblar. Ona görə də bütün tələbələr DİM imtahanı ilə qəbul olmalıdırlar".

# İSVEÇİN İƏT YANINDA XÜSUSİ NÜMAYƏNDƏSİNİN STATUSU LƏĞV EDİLİB

İslam Əməkdaşlıq Təşkilatının Baş katibliyi İƏT İcraiyyə Komitəsinin iyulun 2-də keçirilmiş fövqəladə iclasında dərc edilmiş Yekun Bəyannaməsinin tövsiyələrinə uyğun olaraq, İsveç Krallığının İƏT yanında xüsusi nümayəndəsi statusunun ləğv edilməsi barədə qərar qəbul edib və bu haqda İsveç hökumətinə məlumat verib.

İclasda Baş katib Hissein Brahim Taha Baş katibliyə tapşırıb ki, müqəddəs "Qurani-Kərim"in nüsxələrinin və ya digər islami dəyərlərin dövlət qurumlarının razılığı ilə təhqir edildiyi hər hansı ölkə ilə əlaqələrə rəsmi çərçivədə yenidən baxılsın, o cümlədən xüsusi elçinin statusunun dayandırılması üçün mümkün addımlar nəzərdən keçirilsin.

Baş katibin bu qərarı İsveç Krallığının xarici işlər nazirinə təqdim edilib. Digər tərəfdən, Taha bəzi üzv dövlətlərin İslamın müqəddəs dəyərlərinə təkrar hücumlara etiraz olaraq gördüyü tədbirləri alqışlayıb. O, bütün müsəlman ölkələrini münasib hesab etdikləri suveren qərarlar qəbul edərək, İsveç hakimiyyəti tərəfindən müqəddəs "Qurani-Kərim"in və İslam rəmzlərinin dəfələrlə təhqir edilməsinə imkan verən icazələri pisləyən mövqelər bildirməyə və bu cür rüsvayçı hərəkətləri rədd etdiklərini ifadə etməyə çağırıb.

Baş katib ifadə azadlığının həyata keçirilməsinin xüsusi vəzifə və məsuliyyətlər tələb etdiyini nəzərə alaraq, bu cür hücumların cinayət məsuliyyətinə cəlb edilməsi üçün zəruri qanunvericilik tədbirlərinin görülməsinin vacibliyini vurğulayıb. O, həmçinin vurğulayıb ki, "Qurani-Kərim"in nüsxələrinin yandırılması, İslamın Peyğəmbərinin və rəmzlərinin təhqir edilməsi adi islamofobiya hadisələri deyil. Bundan əlavə, Baş katib beynəlxalq ictimaiyyəti dini nifrətin hər hansı təbliğatını açıq şəkildə qadağan edən beynəlxalq hüququ təcili şəkildə tətbiq etməyə çağırıb. O, BMT-nin İnsan Hüquqları Şurasının bu yaxınlarda qəbul etdiyi "ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhrik yaradan dini nifrətlə mübarizə" ilə bağlı qətnamənin müddəalarına riayət edilməsinin vacibliyini qeyd edib.

İƏT-in Baş Katibliyi bu məsələnin müzakirəsini davam etdirmək və məqsədəuyğun qərarları qəbul etmək üçün ən qısa zamanda Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasını keçirməyə hazırlaşır.

# DQİDK-NIN ŞÖBƏ MÜDİRİ: "MƏKTƏBLƏRDƏ DİN TƏDRİSİNDƏN QƏTİYYƏN SÖZ GETMİR, GEDƏ DƏ BİLMƏZ"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi qurumun sədri Mübariz Qurbanlının məktəblərdə dini bilgilərin tədrisi ilə bağlı fikrinə aydınlıq gətirib.

Komitənin Dini təhsil şöbəsinin müdiri, dinşünas Elnarə Kərimova APA-nın sorğusuna cavab olaraq bildirib ki, bugünədək "Məktəblərdə din tədris olunsunmu?", "Məktəblərdə dini dərsə ehtiyac varmı?", "Məktəblərdə din dərsləri keçirilə bilərmi?" kimi mövzular mediada dəfələrlə müzakirə olunub, ictimaiyyət tərəfindən müxtəlif yanaşmalar irəli sürülüb:

"Son günlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının orta məktəblərdə dinlər haqqında biliklərin verilməsi üçün ayrıca fənnin tədrisi ilə bağlı fikirlərini yanlış anlayanların və ya bunu qəsdən fərqli yerlərə yozan "ekspert"lərin rəy və mövqeləri bilərəkdən və ya bilməyərəkdən mediada tirajlanmaqdadır. Elə rəy formalaşdırmağa çalışırlar ki, guya Mübariz Qurbanlı "məktəblərdə şagirdlərə din tədris olunmalıdır" deyə fikir səsləndirib. Halbuki belə bir fikir söylənilməyib.

DQİDK isə həmişə vahid mövqe nümayiş etdirib: "Orta məktəblərdə din tədrisindən söz gedə bilməz, dinlər haqqında ümumi bilgilər, məlumatlar verilə bilər".

Cəmiyyətdə yanlış bir fikir formalaşdırılmağa çalışırlar ki, guya məktəbdə din tədrisi, şəriət tədrisi təklif olunur. Birincisi, Azərbaycanda dövlət təhsil müəssisələrində din, şəriət tədris oluna bilməz. Azərbaycan dünyəvi dövlətdir. Din dövlətdən ayrıdır. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır. Bütün bunlar isə dinin, şəriətin ümumtəhsil müəssisələrində tədrisinə yol vermir.

Amma dinlər haqqında biliklərin verilməsinə ehtiyac var. Çünki respublikamızın yerləşdiyi coğrafi ərazi, xüsusilə də Azərbaycanla həmsərhəd ölkələrdə zaman keçdikcə din amilinin güclənməsi, ölkəmizin daimi yad və zərərli dini təsirlərin hədəfində olması dini zəmində ölkəmizə yönəlik təhdidlərin hər zaman olacağını deməyə əsas verir.

Belə bir vəziyyətdə azərbaycanlı yeniyetmə və gənclərin dinlər haqqında ilkin bilikləri ibadət evlərindən, internet resurslarından, cəmiyyətdəki təsadüfi şəxslərdən və ya dinlə bağlı lazımi qədər məlumata malik olmayan valideynlərindən alması məqsədəuyğun hesab edilmir. Bu sadalan "mənbələr" dinlər haqqında yetərli biliklərə və ortaq dini düşüncəyə malik olmadıqları üçün gənclərin dini dünyagörüşünün formalaşması işi onlara etibar edilə bilməz. Həmçinin Dövlət Komitəsi və digər müvafiq qurumlar tərəfindən aparılan müxtəlif formatlı dini maarifçilik işləri radikalizm, dinin siyasiləşdirilməsi və xurafatla mübarizədə effektli olsa da, cəmiyyətdə sağlam və dayanıqlı dini mühitin formalaşması üçün yetərli deyil".

"Əgər bir gəncin, bir yeniyetmənin dinlərlə bağlı bilgisi yoxdursa, bu bilikləri biz yox, "başqası" verirsə, radikal, qeyri-ənənəvi və ya zərərli dini cərəyan olsun, bunlardan alarsa, elə isə buna görə biz məsuliyyət daşımayacağıqmı?"

Şöbə müdiri deyib ki, təhsil sistemimiz vasitəsilə vətəndaşlara hələ yeniyetmə dövründə eyni mənbədən, fərqli izahlara yol açmadan, vahid bir proqrama əsaslanan dinlər haqqında ilkin biliklər verilməsi olduqca zəruridir:

"Yalnız bu halda yeniyetmələrin sonradan yad təsirlərə məruz qalması ehtimalı məhdudlaşacaq, bütün dinləri əxlaq və mənəviyyat nöqteyi-nəzərindən əxz etmiş gənclərimiz radikal, ekstremist qrupların təsiri altına düşməyəcəklər.

Hazırda ölkəmizin ali təhsil müəsssisələrində tələbələrə "Multikulturalizmə giriş" fənni vasitəsilə dinlər haqqında biliklər verilir. Ümumtəhsil müəssisələrində isə məhdud sayda dini mövzuları da ehtiva edən "Həyat bilgisi" adlı fənn tədris edilir və ya dinlər haqqında məlumatlar Tarix, Ədəbiyyat, Azərbaycan dili fənlərindəki müəyyən mövzulara inteqrasiya olunur. Lakin fikrimizcə, bu, orta məktəb şagirdlərinə dinlərlə bağlı biliklərin verilməsi üçün zəruri tələbi yetərincə ödəmir. Bu baxımdan mövcud reallıqlar nəzərə alınmaqla ümumtəhsil məktəblərində yuxarı siniflərin birində dinlər, tolerant və multikultural ənənələr, milli-mənəvi dəyərlər, radikalizm, xurafat haqqında bilikləri özündə əks etdirən birillik seçmə fənn kimi ayrıca dərsin keçilməsi məqsədəuyğun olardı.

Qeyd edək ki, təkcə müsəlman və Qərb ölkələrində deyil, son illər keçmiş sovet məkanında da ümumtəhsil müəssisələrində dinlərlə bağlı biliklər verən fənnin tədrisinə başlanılmışdır. Bu sahədə ilk addım atmış ölkələrdən biri Gürcüstandır. Hazırda Gürcüstanla yanaşı, Rusiyada "Dünyəvi etikanın əsasları", "Dünya dini mədəniyyətlərinin əsasları", "Pravoslav mədəniyyətinin əsasları", "İslam mədəniyyətinin əsasları", "Buddizm mədəniyyətinin əsasları" və s., həmçinin Belarusda "Pravoslav mədəniyyətinin əsasları", Ukraynada "Xristian etikasının əsasları" və ya "Ukrayna mədəniyyətində xristian etikası", Ermənistanda "Erməni kilsəsinin tarixi", Qırğızıstanda "Din mədəniyyəti tarixi", Qazaxıstanda "Dünyəvilik və dinin əsasları", Özbəkistanda "Dünya dinlərinin tarixi" adlı fənlərin tədrisi çərçivəsində şagirdlərə dinlər haqqında biliklər verilir. Bu fənlərin tədrisi bəzi ölkələrdə məcburi, bəzi ölkələrdə isə könüllülük əsasında həyata keçirilir.

ABŞ, Fransa, Yaponiyada ancaq özəl məktəblərdə (dini qurumlar, kilsə) din təhsili, İngiltərə, İtaliyada dövlət və özəl məktəblərdə seçmə fənn, Almaniya, Belçika, Kanadada dövlət və özəl məktəblərdə seçmə din və ya əxlaq fənni, Danimarka, Norveçdə "Vətəndaşlıq bilgisi" dərsi çərçivəsində dövlət məktəblərində icbari dini təhsil verilir.

Qısacası, əksər ölkələrdə ümumtəhsil müəssisələrində yeniyetmə və gənclərə fərqli formalarda da olsa, dinlər haqqında biliklər verilməsi faktdır.

Bu baxımdan Dövlət Komitəsi ümumtəhsil müəssisələrinin yuxarı siniflərinin birində, şagirdlərin dünyagörüşünün artıq formalaşdığı bir dövrdə dinlər haqqında biliklərin, milli-mənəvi dəyərlərin öyrədilməsi üçün ayrıca seçmə fənnin tədrisini məqbul hesab edir.

Bir daha vurğulamaq istəyirəm ki, məktəblərdə din tədrisindən qətiyyən söz getmir, gedə də bilməz. Məktəblərdə dinin tədrisi müzakirə mövzusu deyil. Ölkəmizdə dini təhsili dini kolleclər və Azərbaycan İlahiyyat İnstitutu verir. Söhbət şagirdlərə dünya dinləri, tolerant və multikultural ənənələr, milli-mənəvi dəyərlər, radikalizm və xurafat haqqında məlumatların verilməsindən gedir.

Amma bütün hallarda təhsil müəssisələrində nəyin tədris olunub-olunmayacağı Elm və Təhsil Nazirliyinin səlahiyyətləri çərçivəsindədir".

## ROMA PANTEONA GİRİŞ ÜÇÜN TURİSTLƏRDƏN PUL ALMAĞA BAŞLAYIB

3 iyul tarixindən etibarən Romadakı 2000 illik Panteona giriş haqqı alınmağa başlanılıb. "Hurriyet Daily news" xəbər verir ki, bundan sonra turistlər İtaliyanın ən çox ziyarət edilən mədəniyyət məkanını görmək üçün 5 avro ödəməlidirlər. Azyaşlılar və Roma sakinləri ödənişdən azaddırlar.

Şəhərin ən qədim və ən sevimli tikililərindən biri olan bu bina hazırda həm də müqəddəs katolik kilsəsidir. Bununla əlaqədar olaraq, bilet satışından əldə olunan gəlirin bir hissəsinin Roma Yeparxiyasının, qalan hissəsinin isə İtaliya Mədəniyyət Nazirliyinin ehtiyaclarının ödənilməsinə yönəldiləcəyi açıqlanıb.

Bilet almaq üçün günəşin altında növbəyə dayanan turistlərdən sorğu zamanı bildiriblər ki, yeni ödəniş bir çox insanı Panteonu ziyarət etmək fikrindən döndərməyəcək və onların fikrincə, beş avro çox məqbul qiymətdir.

Romadakı digər böyük kilsələri, o cümlədən Müqəddəs Pyotr Bazilikasını ziyarət etmək pulsuzdur, lakin Kolizey kimi tarixi abidələr və muzeylər biletlədir.

Qədim Romanın ən yaxşı qalmış tikililərindən biri olan Panteon 43 metr diametrli qeyri-adi qübbəsi ilə məşhurdur, onun dairəvi dəliyi var, oradan içəri işıq şüaları düşür, bəzən yağış da yağır.

Panteon eramızdan əvvəl I əsrdə məbəd kimi tikilmiş və sonra eramızın II əsrinin əvvəllərində İmperator Adrianın rəhbərliyi altında əsaslı şəkildə yenidən qurulmuşdur.

## UKRAYNADAN İXRAC EDİLƏN BİZANS İKONALARI LUVRDA SƏRGİLƏNİR

Kiyevin Bohdan və Varvara Xanenko adına Milli İncəsənət Muzeyinə məxsus ondan çox Bizans ikonası xüsusi hərbi müşayiət tərəfindən Polşa və Almaniyadan keçərək Parisdəki Luvr muzeyinə çatdırılıb. "Orthochristian.com"a istinadən, iyunun 14-də açılan və 2023-cü il noyabrın 6-dək davam edəcək "Müqəddəs obrazın mənşəyi" adlı yeni sərgidə gətirilən on altı ikonadan beşi nümayiş etdiriləcək.

Qalan on bir ikona Luvrun anbarlarında saxlanılır.

Onların arasında Sinay dağındakı Müqəddəs Yekaterina monastırından gətirilən, VI və VII əsrlərə aid dörd ikona var: Müqəddəs Məryəm və Körpə Məsih, Müqəddəs Sergius və Baxus, Vəftizçi Yəhya, Müqəddəs Platon və Qlikeriya. Bundan başqa, Konstantinopoldan XIII əsrin sonu və ya XIV əsrin əvvəllərində gətirilmiş Müqəddəs Nikolayın bir mikromozaik ikonu var.

"Biz Ukrayna kolleksiyalarının təhlükəsizliyindən narahat idik. Payızda Ukraynada münaqişə kəskinləşəndə biz onların xilasını təşkil etdik", - Luvrun direktoru Laurens de Kar "AFP"yə açıqlamasında bildirib. Onun sözlərinə görə, əgər ikonalar Kiyevdə qalsaydı, onlar risk altında olardı.

Sinay ikonalarının Ukraynaya gəlib çıxmasının tarixi XIX əsrin ortalarına təsadüf edir. Onları Sinay dağına ziyarət zamanı Çigirinski yepiskopu, Kiyev yeparxiyasının vikarisi Porfiri (1804-1885) aşkar edib.

Sinaydakı Müqəddəs Yekaterina monastırının ərazisinə göz gəzdirərkən ozamankı arximandrit Porfiri keşiş cübbələrinin saxlandığı yerdə köhnə zir-zibillərin arasında bir neçə kiçik ölçülü lövhə görür. Onların üzərindəki ikona rəsmləri çox çətinliklə seçilirdi. Görünür, monastırda onlara çox dəyər verilməyib. Buna görə də Porfiri bu lövhələri yalvar-yaxarla özünə götürür.

Din xadiminin elmi intuisiyası onu aldatmır. Köhnə, çatlamış lövhələrin erkən xristian dövrünə aid, enkaustik (mum rəssamlığı) texnikası ilə çəkilmiş, VI-VII əsrlərə aid ikonalar olduğu müəyyən edilir. 1885-ci ildə arximandrit Porfiri onları Kiyev İlahiyyat Akademiyasının muzeyinə vəsiyyət edir, 1941-ci ildə isə ikonalar Xanenko Muzeyinə təhvil verilir.

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ QAZILAR ŞURASININ MƏHƏRRƏM AYININ BAŞLANMASI İLƏ ƏLAQƏDAR MÜRACİƏTİ

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və səlahiyyətli nümayəndələri Məhərrəm ayının başlanması ilə əlaqədar iyulun 18-də əhaliyə müraciət edib.

"AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasının rəsmi hesablamalarına görə Hicri-qəməri təqvimi ilə 1444-cü il başa çatır, yeni 1445-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i Miladi təqvimlə 2023-cü il iyul ayının 19-na, Aşura günü isə iyul ayının 28-nə təsadüf edir.

Əsrlər boyu Azərbaycan xalqının yaddaşında iz qoyan Məhərrəm ayının Aşura günü – Peyğəmbərimiz Məhəmmədin (s.a.s.) əziz nəvəsi İmam Hüseyn əleyhissalamın ailəsi və səhabələri ilə birlikdə haqsızlığa və zülmə qarşı mübarizədə şəhadətə yetişməsi dünya tarixində fədakarlıq salnaməsi kimi dəyərləndirilir. Kərbəla şəhidləri İslamın "yaxşılığa dəvət və pislikdən çəkindirmə" məfkurəsini bütün ümmət üçün əsl nümunəyə çevirmiş, din, Vətən, torpaq, ailə şərəfi və müqəddəs amallar uğrunda şəhadətin mükəmməl əxlaq nümunəsini yaratmışlar. Hamımız yaxşı xatırlayırıq ki, bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev Təzəpir məscidində Aşura mərasimindəki tarixi çıxışında demişdi: "Biz bundan sonra da haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq".

Biz, Azərbaycan müsəlmanları şükürlər edirik ki, builki Məhərrəm ayı Qarabağ həsrətinin sonu, illər boyu dualar etdiyimiz zəfər dönəminə təsadüf edir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun bizlərə yaşatdığı qürur və sevincə görə Uca Yaradana həmd-sənalar, dövlətimizin rifahı üçün dualar edirik. İşğaldan azad olmuş ərazilərimizdə yenidənqurmanın başlanması, dini-mədəni abidələrimizin




bərpası, həmvətənlərimizin doğma yurd-yuvalarına Böyük Qayıdışı – bütün bunlar Allah-Təalanın lütfü ilə müdrik dövlət başçımızın səyləri sayəsində reallaşan arzularımız, dualarımızdır. Uca Allah xalqımızı, dövlətimizi hifz etsin, dövlət rəhbərimiz və Ali Baş Komandanımızın Azərbaycan naminə fəaliyyətinə daima rəvac versin.

Son illər Məhərrəmlik dönəmində dindarları İslama yad əməllərdən və xurafatdan çəkindirən əsas tədbirlərdən biri - Kərbəla şəhidlərinin xatirəsinə qanvermə aksiyası müqəddəs dinimizə layiq olan ən münasib əzadarlıq nümunəsi kimi bilavasitə Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə reallaşan və xalq tərəfindən təqdir edilən hadisədir. Ümidvarıq ki, inşaAllah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, qan bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında Allah rizası üçün İmam Hüseyn (ə) və əziz şəhidlərin xatirəsinə ehsan niyyəti ilə qan verəcək, minlərlə xəstə insana, irsi xəstəliklərdən əziyyət çəkən uşaqlara şəfa bəxş edəcəklər. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdiriləcəkdir.

Qazılar Şurası olaraq dindarlarımıza xatırlatmaq istərdik ki, məhərrəmlik mərasimləri zamanı müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq, qurşağadək soyunaraq sinə vurmaq və sair dinimizə görə qəbuledilməzdir. Həmçinin QMİ Qazılar Şurası yerlərdəki nümayəndələrinin nəzərinə çatdırır ki, "Dini etiqad azadlığı haqqında" Qanunun müddəalarına riayət edərək dini mərasimləri məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirsinlər. Azərbaycan qanunlarına əsasən, təziyə mərasimləri zamanı milli-mənəvi dəyərlərimizə və dövlətçilik ənənələrimizə xələl gətirən şüarların səsləndirilməsi, dövlət simvollarına uyğun olmayan atributların istifadəsi, küçə yürüşləri və ictimai asayişin pozulması icazəli deyildir. Özəlliklə, son zamanlar koronavirusun yenilənmə təhlükəsini nəzərə alaraq məhərrəmlik ayının ayinləri tibbi-profilaktik qaydalara uyğun olmalıdır. Qeyd olunan tövsiyələrin bölgələrdəki din xadimlərinin dindarlara çatdırması vacibdir, qazılar və səlahiyyətli nümayəndələr öz bölgə məscidlərində görülən tədbirlər barədə tam hesabatlarını Qafqaz Müsəlmanları İdarəsinə təqdim etməlidirlər.

Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı, Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 Yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur. Peyğəmbərimiz Məhəmməd Salavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksələn şəhidlərə, o cümlədən Kərbəlada və Vətən uğurunda şəhid olan övladlarımıza rəhmət, qazilərimizə şəfa, bütün xalqımıza dəyanət və səadət diləyirik".

## 1938-Cİ İLDƏ NASİSTLƏR TƏRƏFİNDƏN DAĞIDILMIŞ SİNAQOQUN FRAQMENTLƏRİ TAPILIB



Almaniyada İzar çayının bəndində aparılan təmir işləri zamanı inşaatçılar 1938-ci ildə Adolf Hitlerin əmri ilə sökülən Münhenin baş sinaqoqunun qalıqlarını aşkar ediblər. Bu barədə "Bayerischer Rundfunk" xəbər verib.

Sinaqoqun sökülməsini həyata keçirən "Leonhard Moll" şirkəti əvvəlcə binanın qalıqlarını - təxminən 150 tonluq daş fraqmenti - şirkətin Münhenin qərbində yerləşən ərazisində saxlayıb. Müharibədən sonra, 1956-cı ildə sinaqoqun qalıqları İzar çayının bəndində təmir işlərində istifadə edilib.

1938-ci il noyabrın 9-da yəhudi qırğınının baş verdiyi gecə deməkolar ki, Münhendəki bütün sinaqoqlar dağıdılıb. Yalnız Rayhenbaxştrassedəki sinaqoq qismən dağıdılıb.

Münhen meri Dieter Reiter tapıntını "uğur və sensasiya" adlandırıb və bildirib ki, Hitlerin əmri ilə baş sinaqoqun sökülməsi "yəhudi mədəniyyətinin təcrid olunmasına, təqib edilməsinə və məhvinə səbəb olub". "Bir vaxtlar şəhərin mənzərəsini bəzəmiş möhtəşəm binanın qalıqlarının üzə çıxarılması faktı böyük uğurdur və mən buna çox mütəəssir oldum. Yəhudilər şəhərimizin tarixinin, bu gününün və gələcəyinin ayrılmaz hissəsi olublar və olmağa da davam edirlər", - deyə Reiter əlavə edib.

Münhen merinin müavini Katrin Habenşaden bildirib ki, 85 il əvvəl sinaqoqun nasistlər tərəfindən sökülməsi Münhen tarixinin ən qaranlıq günlərdən biri idi. "Ona görə də bizim vəzifəmiz tapıntıları qorumaq və yəhudi icmasına qaytarmaqdır".

Münhen Mədəniyyət Departamentinin məlumatına görə, Abidələrin Mühafizəsi üzrə Dövlət İdarəsi bənddə arxeoloji işlərin koordinasiyasını öz üzərinə götürüb.

## ARXEOLOQLAR ELLİNİZM DÖVRÜNƏ AİD QƏDİM SƏCDƏGAHLAR AŞKAR EDİBLƏR



Arxeoloqlar Seqestada mühüm kəşf ediblər. Bu barədə Siciliya regionunun "İnstitusional" portalı məlumat yayıb. Bu yerlərdə davam edən qazıntılar zamanı onların aşkarladıqları səcdəgahların tarixi ellinizm dövrünə təsadüf edir.

Ellinlərin - italyan mənşəli xalqın bir zamanlar tanınmış şəhəri olmuş Seqesta Siciliya adasını finikiyalı və yunan mühacirlər arasında bölüb. Seqestanın dəqiq yaranma tarixi naməlum olaraq qalır, lakin şəhər haqqında ən qədim yazının tarixi təxminən eramızdan əvvəl 580-ci il göstərilir. "HeritageDaily" yazır ki, bu yazı Seqesta və Selin (hazırda Selinunte kimi tanınan) arasında münaqişəni təsvir edir.

Şəhər mədəniyyət baxımından yunanların açıq-aşkar təsirinə məruz qalıb. Bunu gil qabda tapılan yazılar sübut edir.

Seqestanın xarabalıqları Siciliyanın şimal-qərb regionunda, Monte-Barbaro zirvəsi yaxınlığında yerləşir. Bir vaxtlar çiçəklənən şəhərin qalıqlarına Dor məbədi, aqora (mərkəzi ictimai məkan), amfiteatr və şəhər divarlarının müxtəlif hissələri daxildir.

Kasa-del-Navarka kimi tanınan tikilidə bu yaxınlarda aparılan qazıntılar görünməmiş nəticələr verib. Arxeoloqlar tərəfindən aşkarlanan iki daş memarlıq elementində aparılan ətraflı tədqiqatda onlar ellinizm dövrünün səcdəgahları kimi eyniləşdirilib.

Bu səcdəgahların yaşayış evlərində yerləşdirilməsi ehtimalı var. Birinci element boyunbağıdan muncuqları xatırladan kiçik oval fiqurlarla bəzədilən dekorativ yapma naxışları nümayiş etdirir. Bundan başqa, böyük sayda gül və meyvə ilə dolu olan səbət təsvirinin relyefi də mövcuddur. Həmçinin metal qarmağın salınması üçün oyma dəlik də nəzərə çarpır.

İkinci element isə üç tərəfdən yonulmuş səthə malikdir və bu da onun nə vaxtsa suvaqlanmasını sübut edir. Təəssüf ki, yalnız bəzi dekorativ elementlər, xüsusən yapma karniz toxunulmamış qalıb.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsratində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Ağayev Ağa Əli oğlu

Zirvə təbiətin coğrafi yüksəkliyi olduğu kimi şəhidlik də vətənpərvərliyin ən ali məqamıdır. 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanan rəşadətli ordumuzun sıralarında mərdliklə döyüşərək şəhadət zirvəsinə ucalan qəhrəman igidlərimizdən biri də şəhid Ağayev Ağa Əli oğludur. Ağa 2001-ci il aprelin 4-də Qusar rayonunun Yeni Həyat qəsəbəsində anadan olub. O, 2007-ci ildə Əfqan Mərdanov adına Yeni Həyat kənd ümumi orta məktəbin 1-ci sinfinə daxil olub. 2016-cı ildə həmin məktəbin 9-cu sinfini bitirən Ağa 2019-cu ilin aprelində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Qusar rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. O, aprelin 8-də hərbi xidmətə yollanıb. Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Hərbi xidmət zamanı ilk günlərdən nizam-intizamı ilə komandir və rəislərinin hörmətini qazanan Ağa manqa komandiri vəzifəsinə təyin olunub.



2020-ci ilin 27 sentyabrında mənfur düşmənlərimizin hücumu zamanı əks-hücum əməliyyatına başlayan ordumuzun əsgəri olan Ağa elə ilk döyüşlərdən göstərdiyi igidliklərlə komandirlərinin və döyüş yoldaşlarının diqqətini cəlb edib. O, Suqovuşanı düşmən tapdağından azad edən qəhrəmanlarımızdan biri kimi adını tarixə yazdırıb. Şəhidimizin döyüş yoldaşları onu qorxmaz, ölümün gözünə dik baxan igid kimi xarakterizə edirlər. Döyüşlərdə bacarığı və mətinliyi ilə seçilən Ağa Ağayev oktyabrın 22-də Tərtərin Suqovuşan qəsəbəsi istiqamətində düşmənin artilleriya hücumu nəticəsində qəhrəmancasına şəhid olub. Şəhidimiz oktyabrın 24-də doğulduğu qəsəbədə torpağa tapşırılıb.

Qəhrəmanımızın atası Əli Ağayev traktorçudur, o deyir ki, oğlu hələ orta məktəbdə oxuduğu illərdə kənd təsərrüfatına maraq göstərirdi: "Böyük həvəslə traktorumuzun sükanı arxasına keçər, kənd camaatının tarla işlərini görərdi. Ağa mənim dayağım idi. Qismət belə imiş. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Evdar qadın olan anası Fatmanisə Ağayeva isə bildirir ki, Ağa dörd bacının bir qardaşı idi. Hərbi xidmətdə olarkən mənimlə danışanda orduda qalacağını deyirdi: "Söyləyirdi ki, ana, qorxma, burda qalıb xidmət edəcəyəm. Bir müddət keçəndən sonra səni də yanıma gətirəcəyəm. Hələ də oğlumun yolunu gözləyirəm..."

Qəhrəmanlığı və qorxmazlığı ilə seçilən əsgər Ağayev Ağa Əli oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Dörd bacının yeganə qardaşı olan şəhidimiz subay idi.

## Ağayev Ağamalı Şamil oğlu

Şəhid Ağayev Ağamalı Şamil oğlu 1996-cı il sentyabrın 23-də Masallı rayonunun Çaxırlı kəndində doğulub. O, 2002-2004-cü illərdə Sarıcəfərli kənd ümumi orta məktəbində, 2004-2013-cü illərdə Çaxırlı kənd tam orta məktəbində təhsil alıb. Məktəbi bitirdikdən sonra Masallı Dövlət Regional Kollecinin Aqronumluq fakültəsinə qəbul olsa da, təhsilini davam etdirməyib. O, 2014-cü ilin oktyabrında SHXÇDX-nın Masallı rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. Oktyabrın 2-də hərbi xidmətə gedən Ağamalı Silahlı Qüvvələrin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Nümunəvi hərbi xidmətinə görə dəfələrlə təşəkkürnamələr alıb. Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzi sayılan Mübariz İbrahimovun adını daşıyan postu milli qəhrəmanımızın əmanəti kimi canla-başla qoruyub. Ordudan tərxis olunmağa bir neçə gün qalmış namərd düşmən qoşunların təmas xəttində silahlı təxribatlar törətməsi nəticəsində baş vermiş döyüşlərin iştirakçısı olan qəhrəmanımız 2016-cı il aprelin 28-də ordu sıralarından tərxis olub.



Həmişə yaxınları ilə söhbəti zamanı vətənin dar günü olarsa, könüllü olaraq döyüşlərə qatılacağını deyən Ağamalı 2020-ci ilin iyul döyüşlərindən sonra SHXÇDX-nın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün müraciət edib və müvafiq formada qeydiyyata alınıb.

2020-ci il 27 sentyabrda Vətən müharibəsi başladıqdan sonra 28 sentyabrda ordu sıralarına çağırılan Ağamalı Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb. Bir neçə gün orada qaldıqdan sonra könüllü olaraq ön cəbhəyə gedib, Cəbrayıl rayonu istiqamətindən döyüşlərə qoşulub. Cəbrayıl, Füzuli və Qubadlı cəbhəsində bir çox yaşayış məntəqəsinin işğaldan azad olunmasında iştirak edib.

Ağamalı oktyabrın 20-də Füzuli rayonu ərazisində gedən döyüşlər zamanı yaralı hərbi qulluqçunu döyüş meydanından çıxaran zaman erməni snayperin gülləsinə tuş gələrək şəhid olub. Şəhidimizin döyüş yoldaşı Gülverdi Bəbirov Ağamalının son döyüşü barədə deyir: "Biz dağa qalxırdıq, üstümüzdə olan ağır əşyaları, hətta dəbilqələrimizi çıxartıq ki, üzüyuxarı rahat qalxaq. Ən birinci mən ayağımdam yaralandım. Dedilər ki, gəl səni döyüş meydanından çıxaraq. Dedim ki, ayağıma güllə yox, daş dəyib. İrəli getdik, düşmənin səngərini dağıtdıq. Bu zaman düşmən snayperinin gülləsi Ağamalını boynundan ağır yaraladı..."

Şəhidimiz 2020-ci il oktyabrın 21-də doğulduğu Çaxırlı kəndində dəfn edilib.

İgidliyi ilə fərqlənən qəhrəmanımız əsgər Ağayev Ağamalı Şamil oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimiz subay idi, onun iki bacısı var.

## Ağayev Ağamir Qüdrət oğlu

Əslən Füzuli rayonunun Şükürbəyli kəndindən olan şəhid Ağayev Ağamir Qüdrət oğlu 1996-cı il iyulun 14-də Biləsuvar rayonununda yerləşən 2 saylı çadır şəhərciyində dünyaya gəlib. Şükürbəyli kəndi 1993-cü ildə erməni işğalı altına düşsə də, 1994-cü ilin yanvarında Horadiz əməliyyatı zamanı işğaldan azad edilib. Ağamirin ailəsi də digərləri kimi 2001-ci ildə yenidən öz kəndlərinə geri qayıdıb. Ağamir 2002-ci ildə Şükürbəyli kənd tam orta məktəbin 1-ci sinfinə gedib, 2003-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib. Ağamir 2014-cü ilin iyulunda SHXÇDX-nın Füzuli rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılıb. O, Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində kəşfiyyatçı kimi xidmət edib. Hərbi xidmətini başa vurduqdan sonra 2016-cı ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirən qəhrəmanımız Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətinə davam edib. O, düşmənlə üzbəüz səngərlərdə şücaəti, qətiyyəti, vətən sevgisi ilə xidmət etmiş, ayıq-sayıq döyüş növbətçiliyi aparıb.



2017-ci ildə müddətdən artıq xidmətini başa vurub, digər işlərlə məşğul olub. 2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər bir çoxları kimi Ağamirin də həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-ya ərazi bütövlüyü uğrunda başlayacaq mümkün müharibədə iştirak etmək üçün müraciət etmiş və müvafiq formada qeydiyyata alınıb. 2020-ci il sentyabrın 27-də ermənilər tərəfindən törədilən təxribat zamanı əks-hücuma keçən ordu sıralarında xidmət etmək üçün Ağamir könüllü olaraq döyüşə yollanıb. Füzuli istiqamətində gedən döyüşlər zamanı bir çox uğurlu tapşırıqlarda Ağamir də ruh yüksəkliyi ilə iştirak edib. Oktyabrın 8-də Füzuli rayon Seyidəhmədli kəndi istiqamətində gedən gərgin döyüşlər zamanı Ağamir qəhrəmancasına döyüşərək şəhid olub. Şəhidimiz Şükürbəyli kəndində torpağa tapşırılıb.

Cəsurluğu və şücaəti ilə adını vətən tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Ağayev Ağamir Qüdrət oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Şəhidimiz subay idi, onun bir bacısı, bir qardaşı var.

**Hazırladı: Ramil Hikmət**

# MDTF-NİN DƏSTƏYİ İLƏ LƏNKƏRAN ŞƏHƏRİNDƏN OLAN ŞƏHİDLƏRİN AİLƏ ÜZVLƏRİNİN ŞUŞAYA SƏFƏRİ TƏŞKİL EDİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi, "Zəfər: Şəhid ailələrinə dəstək" İctimai Birliyi, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi və Lənkəran şəhəri Böyük bazar "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə Lənkəran şəhərində yaşayan şəhid ailəsi üzvləri və bir sıra ictimaiyyət nümayəndələrinin Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinə səfəri baş tutub.

Səfər çərçivəsində Şuşanın zəngin tarixi, mədəni irsi, şəhərdə aparılan quruculuq və bərpa işləri ilə tanışlıq olub. Şəhidlərin ailə üzvləri Cıdır düzünə gedib, Yuxarı Gövhər Ağa məscidini, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini, Üzeyir Hacıbəyli, Bülbül və Xurşidbanu Natəvanın güllələnmiş büstlərini ziyarət ediblər. Gəzinti Şuşanın tarixi-mədəni abidələri və Şuşa qalasında davam edib. Səfər müddətində şəhidlərin doğmaları qəhrəman oğulların keçdiyi şərəfli yoldan, onların şücaətlərindən söhbət açıblar.



## QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini iyul ayı ərzində də davam etdirmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**5 iyul** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini radikalizmdən qorunmağın yolları" mövzusunda;



**7 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sabirabad rayonu üzrə nümayəndəliyi və Sabirabad RİH-in birgə təşkilatçılığı ilə "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövsuzunda;

**10 iyul** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin dəstəyi və QMİ-nin bölgə qazılığının təşkilatçılığı ilə Təngəaltı kəndi "Seyidlər" məscidi və İkinci Nügədi kəndi "Molla Hud" məscidində dini radikalizm və fanatizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği mövzularında;

**11 iyul** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar rayon Heydər Əliyev Mərkəzi və rayon Gənclər və İdman İdarəsinin (Gİİ) birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev irsi milli sərvətimizdir" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Yeni Azərbaycan Partiyasının (YAP) Zaqatala rayon təşkilatının birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev siyasəti: Müasir Azərbaycan gəncliyi və milli-mənəvi dəyərlər" mövzusunda;

**12 iyul** – DQİDK, Balakən RİH və rayon Mərkəzi Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən şəhər "Cümə" məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**13 iyul** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in təşkilatçılığı, Quba Tarix-Diyarşünaslıq Muzeyinin dəstəyi ilə "14 iyul 1969-cu il: müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün" mövzusunda; DQİDK və Müdafiə Nazirliyinin 2023-cü il üçün birgə fəaliyyət planına əsasən DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron rayon "N" saylı hərbi hissənin birgə təşkilatçılığı ilə "Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, hərbi intizamın möhkəmləndirilməsində, hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda;

**14 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı rayonu Varxankənd kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy Gənclər Evinin birgə təşkilatçılığı ilə "Gəncləri yad dini ideologiyalardan və təsirlərdən qorumağın yolları" mövzusunda;

**19 iyul** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Mərkəzi Aran Regional GİI və Ucar rayonu MKS-in birgə təşkilatçılığı ilə "Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda; DQİDK ilə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə Tədbirlər Planına əsasən məhkumların dini maarifləndirilməsi məqsədilə 8 və 13 saylı cəzaçəkmə müəssisələrində "Zərərli vərdişlərə qarşı mübarizədə dinin rolu" mövzusunda; DQİDK-ın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sərhəd Qoşunlarının Şəmkir rayonunda yerləşən hərbi hissəsində "İntihar: mənəvi və ictimai müstəvidə" mövzusunda;



**20 iyul** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional GİI-nin Masallı rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə "Masallı Gənclər Evi" Sosial Xidmət Müəssisəsində "Dini radikalizm və xurafatla mübarizədə gənclərin rolu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional GİI-nin Cəlilabad rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə "Dini radikalizm və xurafata gənclər yox deyir" mövzusunda;

**21 iyul** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt şəhərində yerləşən Hərbi Polis bölməsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm, zərərli vərdişlər və intihara aparan yollar" mövzusunda;

**26 iyul** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon C.Cabbarlı adına Mərkəzi Kitabxananın akt zalında azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlərin önəmi mövzusunda;



**27 iyul** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Mərkəzi Aran Regional GİI və Ucar Gənclər Evinin birgə təşkilatçılığı ilə "Milli köklərə söykənən mənəvi dəyərlərimiz" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən hərbçilərin, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclərin iştirakı ilə keçirilən tədbirlərdə dini radikalizmin yarada biləcəyi fəsadlardan bəhs olunub. Bu sahədə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda xalqımızın zəngin milli-mənəvi, tolerant və multikultural dəyərlərinin gənclər arasında fəal təbliğ edilməsinin əhəmiyyəti diqqətə çatdırılıb. Natiqlər ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını qeyd edib, multikulturalizmin xalqımızın həyat tərzini təşkil etdiyini vurğulayıblar. O da bildirilib ki, Azərbaycanda dini, milli, irqi və məzhəb ayrı-seçkiliyinə yol verilmir, hər kəsin vicdan azadlığı qorunur.

Tədbirlərdə natiqlər Ulu Öndər Heydər Əliyevin Vətənə sədaqət, xalqa fədakarlıqla xidmətlərindən danışıblar. Qeyd ediblər ki, Ümummilli Liderin şah əsəri olan müstəqil, müasir Azərbaycan bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla inkişaf edir. Dövət başçısı Ulu Öndərin siyasətini davam etdirməklə Azərbaycanı dünyada lider ölkələrdən birinə çevirib.

Vurğulanıb ki, müstəqil respublikamız Ümummilli Liderin indiki və gələcək nəsillərə əmanətidir. Ölkə gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu vardır. Bu siyasətin banisi isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Qeyd olunub ki, Ulu Öndərin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub.

Həmçinin tədbirlərdə zərərli vərdişlərə qarşı mübarizə üsulu kimi İslam dininin rolundan danışılıb, narkomaniya və digər zərərli vərdişlərin cəmiyyətin fiziki və mənəvi məhvinə yol açması, cəmiyyətin əsas sütunu olan ailə institutuna ağır zərbə vurması və bir çox cinayətlərə səbəb olması kimi faktlara diqqət çəkilib.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# CƏHALƏTİN DÜŞMƏNİ QADINDIR...

Çox sevdiyim bir fikir var. Deyir ki, cəhalətin düşməni qadındır, çünki qadın öyrənərsə, övladlarına da öyrədər. Azərbaycanın neft milyonçusu və filantropu, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbinin qurucusu H.Z.Tağıyev isə deyirdi ki, bir oğlana təhsil vermək bir insana təhsil verməkdir; bir qıza təhsil verməksə, bir ailəyə təhsil vermək deməkdir. Fransız yazıçısı Balzakın sözləri də bu fikirləri təsdiqləyici mahiyyətdədir: Millətin gələcəyi anaların əlindədir.

Ana nəcib insanları həyata hazırlayan bir məktəbdir. Ən böyük sərkərdələri, dahi alimləri, güclü şəxsiyyətləri yetişdirən anadır. Düzdür, o bu işdə sevgisini, fədakarlığını, qayğısını ortaya qoyur. Ancaq savad, bilik və bunlar vasitəsilə əldə olunan özgüvən olmadan güclü, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək qeyri-mümkündür. Hər bir qadın, hər bir ana öz övladına gözəl əxlaq və savad verməlidir. Bu baxımdan hətta deyərdik ki, oxuyub öyrənmək, biliyə can atmaq müsəlman qadınının vəzifəsidir, onun üzərinə qoyulan məsuliyyətdir.

Ümumiyyətlə, müsəlman qadınının rolu mahiyyət etibarilə olduqca unikaldır. İslam onun üzərinə həm həyat yoldaşı, həm ana, həm övlad olaraq, həm cəmiyyət, həm də özü ilə bağlı vəzifələr qoymuşdur. O, sevən həyat yoldaşı və ana, qayğıkeş övlad və bacı, vəfalı dost, sadiq bəndədir. Uca Yaradan onun həyatının bütün aspektlərini əhatə edən nizamlayıcı qaydalar müəyyənləşdirmişdir. İslamın qadına tanıdığı hüquqlardan biri də təhsil almaq hüququdur. Hətta artıq qeyd etdiyim kimi, bu, hüquqdan daha çox bir vəzifə, məsuliyyətdir. İlk növbədə, Allah qarşısında vəzifədir. Çünki "Zümər" surəsinin 7-ci ayəsində buyurulur ki, "...Sonra Rəbbinizin hüzuruna qayıdacaqsınız. O sizə (dünyada) nə etdiklərinizi (bir-bir) xəbər verəcəkdir", ardınca 9-cu ayədə deyilir ki, "...De: "Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?! (Allahın ayələrindən, dəlillərindən) yalnız ağıl sahibləri ibrət alar!" Müsəlman qadınının İslamın ona bəxş etdiyi şeyləri bilməsi və qiymətləndirməsi üçün oxuyub öyrənməsi, biliyə yiyələnməsi vacibdir. Çünki oxuyub bilmədən, öyrənmədən həyatda nəyin doğru, nəyin yanlış, nəyin gerçək, nəyin yalan olduğunu ayırd etmək çətin məsələdir. Əgər kifayət qədər savadlı deyilsənsə, hər kəs sənə öz həqiqətlərini təqdim etməyə, yalanı gerçək kimi göstərməyə çalışacaq.

İkincisi, övladları və ailəsi qarşısında vəzifədir. Çünki müsəlman qadın bilik səviyyəsini və bununla da imanını artıraraq savadlı gənc nəslin yetişməsinə və mənəvi inkişafına öz töhfəsini verə bilər. Ana hər körpə üçün ilk məktəbdir! O, ərinin yoxluğunda evə və uşaqlara cavabdehlik daşıyan həyat yoldaşıdır.

Övlad yetişdirmək, ilk növbədə, özünü yetişdirməkdən başlayır. Bilik və hikmət olmadan isə özünütərbiyə mümkün deyil. Odur ki, qadınların da kişilər kimi oxuyub təhsil alması, biliklərə yiyələnməsi vacib məsələdir. Hətta deyərdim ki, kişilərdən daha çox qadınların təhsil alması vacibdir. Çünki ana olaraq qadın uşaq tərbiyəsində, onun şəxsiyyətinin formalaşmasında təməl daşı qoyan insandır.

Təhsil həm də qadının özü qarşısında vəzifəsidir. Çünki təhsil özgüvən deməkdir. Təhsil heç kimə yük olmadan ayaqları üzərində dayanmağı bacaran qadın deməkdir. Təhsil qadının özünü şəxsiyyət kimi təsdiqləməsi, həyatda məqsədini müəyyənləşdirə bilməsi, cəmiyyətə bir faydasının dəydiyini görməsi deməkdir. Həm də ruhu canlı, diri saxlayan oxuyub öyrənmək həqiqəti, doğrunu, gözəli axtarmaq deməkdir. Oxumaq ruhu ucaldır və insanı həm öz gözünüzdə, həm də başqalarının gözündə dəyərli edir.

Üstəlik, deyim ki, təhsil almaq hüququmuzun olmasının özü belə bizə bir lütfdür. Elə bir ölkədə yaşayırıq ki, təhsil almaq çox rahatdır. Bunun qədrini bilməliyik, dəyərləndirməliyik. Çünki elə ölkələr var ki, insanlar orada təhsil almaq hüququndan məhrumdurlar. Ya hədsiz dərəcədə yoxsulluq, ya da bitib-tükənməyən müharibələr uşaqların məktəbə getməsinə, normal təhsil almasına imkan vermir.

Ümumiyyətlə, təhsil insan inkişafının ən mühüm tərkib hissələrindən biridir və həyat keyfiyyətini dəyişir. Hər bir ölkənin insan potensialının inkişafı və dövlətin gələcəyi üçün təhsil vacibdir. Təhsil haqqında qanunda təhsilin üç növü göstərilir: formal, qeyri-formal və informal. Formal təhsil - dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır. Ümumi təhsil, ilk peşə-ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil, yenidənhazırlanma təhsili, təkrar ali və ya orta ixtisas təhsili dövlət təhsil sənədinin verilməsi ilə başa çatdığı üçün formal təhsil hesab edilir. Qeyri-formal təhsil isə müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil formasıdır.

İnformal təhsil dedikdə özünütəhsil yolu ilə biliklərə yiyələnmənin forması başa düşülür. Bu da çoxlu kitablar oxumaq, mütaliə yolu ilə mümkündür. Bir dəfə Albert Eynşteyndən soruşurlar ki, biz uşaqlarımızı daha ağıllı necə yetişdirə bilərik. Onun cavabı sadə və müdrik idi: "Əgər uşaqlarınızın ağıllı olmasını istəyirsinizsə, onlara nağıllar oxuyun. Əgər onların daha ağıllı olmasını istəyirsinizsə, onlara daha çox nağıl oxuyun".

Amerikalı yazıçı Nil Geyman deyir ki, savadlı uşaqlar yetişdirməyin ən yaxşı yolu onlara oxumağı öyrətmək və bunun gözəl bir əyləncə olduğunu göstərməkdir. Biz uşaqlarımıza ucadan, onları sevindirən kitablar oxumalıyıq. Onlarda kitaba maraq oyatmalıyıq. Özləri oxumağı öyrənsələr belə, bu vərdişi tərgitməməliyik. Ucadan oxumağı birlik anına, heç kimin telefonlara baxmadığı, dünya zövqlərinin bir kənara qoyulduğu zamana çevirməliyik: "Ədəbiyyat sizə başqa dünyanı göstərə bilər. Sizi heç vaxt olmadığınız yerlərə apara bilər. Sehrli meyvələrin dadına baxanlar kimi bir dəfə başqa dünyalara səyahət etdikdən sonra siz böyüyüb, boya-başa çatdığınız dünyadan artıq heç vaxt bütünlüklə razı qalmayacaqsınız. Narazılıq yaxşı şeydir. Narazı insanlar öz dünyalarını dəyişə və yaxşılaşdıra bilərlər".

Fikirlərimi ümumiləşdirsəm, oxuyub təhsil almaq inkişaf deməkdir. Məhəmməd peyğəmbərin (s) bu hədisini, məncə, elə inkişafa, təhsilə çağırış kimi götürə bilərik. Allah Rəsulu (s) buyurur ki, iki günü bir-birinə bərabər olan ziyandadır. Ən əsası isə təhsil bizim əlimizdə silahdır. Əgər həyatda nəyinsə uğrunda mübarizə aparmaq istəyiriksə, bu silah olmadan mübarizədən qalib çıxa bilmərik.

# CƏNNƏTLƏ CƏHƏNNƏMİN YOLAYRICINDA

Müsəlmanların əsas istinad mənbəyi olan Qurani-Kərimin ilk sözünün "Oxu!" əmri olmasına baxmayaraq, bu gün müsəlman cəmiyyətləri dünyada ən az kitab oxuyan, elm öyrənən toplumlar sırasında yer alır. Xüsusilə, gənclər elm öyrənməyə, elm yoluna üz tutmağa az maraq göstərirlər. Halbuki əyləncə mərkəzlərini, çayxanaları dolduran gənclər kitablara üz tutsalar, öz gələcəklərini daha sağlam təməllər üzərində qurarlar.

Qeyri-intellektual, cahil, elmsiz cəmiyyətin formalaşması özü ilə birgə bir sıra problemlər gətirir ki, bunların başında erkən nikah, boşanmalar, intihar, ailədaxili zorakılıq, xüsusilə də qadınlara qarşı şiddət gəlir. Bu, məsələnin bir tərəfidir. İkinci problem isə oxuyanların, məlumatlı olanların bildiklərini, oxuduqlarını öz həyatlarına tətbiq və yaxud bildiklərini ətrafındakılara təbliğ etməməsidir. Halbuki Allah Rəsulu (s) fayda verməyən elmdən həmişə Uca Yaradana sığınmışdır. Yunus Əmrə bunu çox gözəl şəkildə ifadə etmişdir:

Elm - elm bilməkdir,
Elm özünü bilməkdir,
Sən özünü bilməzsən,
Bu, necə oxumaqdır?

Deməli, yalnız oxumaq kifayət etmir. Oxumaq dürüstlüyü, yaxşılığı, ədalətli olmağı öyrənmək və bunu həyata keçirmək deməkdir. Oxumaq yalnız ağlı zənginləşdirməməli, həm də qəlbə, mənəviyyata xitab etməlidir.

Gənclər həyatda nəyəsə nail olmağın asan yollarını axtarırlar. Buna nail ola bilmədikdə, müvəffəqiyyətsizliyə uğradıqda, özünü təsdiqləyə bilmədikdə depressiyaya düşür, özlərinə qapanır, tənhalıq hissinə qapılırlar. Ailədaxili münaqişə və zorakılıq da burada az rol oynamır. Bəzi hallarda bu, həddən artıq həssas gənclərin intihar barədə düşünmələrinə belə, səbəb olur. Maraqlısı budur ki, aparılan antropoloji tədqiqatlar nəticəsində aydın olmuşdur ki, bəzi ibtidai qəbilələrdə intihar hallarına, ümumiyyətlə, təsadüf edilmir. Burada diqqəti çəkən məsələ niyə həmin qəbilələrdə intihar hadisələrinin olmadığı deyil, müasir dövrdə inkişaf etmiş cəmiyyətlərdə intihar edənlərin sayının çoxalmasıdır. Ola bilsin ki, bu hal qloballaşan dünyada insanların problemlərinin çoxalmasından, maddi rifah əldə etmək arzusunun artmasından qaynaqlanır. Ancaq istənilən halda, intihar heç bir cəmiyyətdə, heç bir səmavi dində yaxşı qarşılanmır. Təkcə "ən-Nisa" surəsinin 29-cu ayəsi intiharın Allah qatında böyük günah sayıldığını göstərmək baxımından kifayətdir: "Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"

Ayəyə diqqət yetirək: "Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!" buyurur. Mərhəmət elə bir məna dərinliyinə malikdir ki, insanları, heyvanları, bitkiləri, əşyaları ilə birlikdə bütün kainatı ulu çinar kimi qucaqlayar. Şiddətin yandıran istisindən, qəzəbin məhvedici selindən qaçan hər can onun kölgəsində dinclik və güvən tapar. O, öz gücünü mərhəmətlilərin ən mərhəmətlisi olan Uca Yaradandan alır. Mərhəməti yaradan, "Rəhman" adıyla sonsuz mərhəmət göstərən, bağışlayan, nemət verən Allah-Təala buyurur ki, "Rəhmətim qəzəbimi keçdi". Elə isə insan da Uca Yaradanın ona bəxş etdiyi mərhəmət hissini duyğudan davranışa çevirməkdə mükəlləfdir. Yəni qəlbindəki mərhəmət hissini bəsləmək, atdığı hər yaxşı addımla onu qüvvətləndirmək, itib getməsinə mane olmaq məcburiyyətindədir. Mərhəmət və ya şiddətin ortaya çıxdığı, formalaşdığı ilk yer ailə ocağıdır. İlk dəfə ana qucağında şəfqətin dadını duyan körpə illər ötdükcə, yaşa dolduqca ana-atasının davranışlarını izləyərək ya mərhəməti, ya da şiddəti mənimsəyər. Nə qədər çox mərhəmətli, anlayışlı, sevgi dolu davranışlar görsə, həm özünü, həm də digər ailə üzvlərinə dəyər verildiyinə şahid olsa, özü də mərhəmətli fərd kimi yetişər. Amma nə qədər çox şiddətə məruz qalsa, qəzəblə rastlaşsa, o qədər çox mərhəmətsiz olar. Bu baxımdan ailə daxilində ata-ananın həm bir-birinə, həm də övladlarına qarşı anlayış və sevgi ilə yanaşması, mərhəmətin əvvəlcə qəlbərdə, daha sonra isə cəmiyyətdə kök salmasına gətirib çıxarar.

Mərhəmətin əksi olan şiddət isə əsrimizin ən ciddi problemlərindən biridir. Şiddətin təməl səbəblərindən biri ünsiyyət qura bilməməkdir. Fərdlərarası ünsiyyət problemi ailədə, küçədə, cəmiyyətdə də özünü göstərir. Ailə insanların yalnız bir məkan daxilində birgə olması deyil. Ailə paylaşma və həmrəyliyin, xoşbəxtlik və kədərin, müvəffəqiyyət və çətinliyin də birlikdə yaşandığı məkanlardır. Hörmət, sevgi, mərhəmət, şəfqət, hirs, qəzəb kimi duyğuları idarə edə bilməyi öyrənmək fərdlərin bir-biri ilə münasibətlərini asanlaşdırır. Xüsusilə, fikirləri ifadə etmək, duyğuları açıqlaya bilmək qabiliyyətini inkişaf etdirmək lazımdır. Çünki danışaraq həll edilməyəcək heç bir problem yoxdur. Özlərini ifadə edə bilməyən fərdlər istəklərini, duyğularını ortaya qoymaq üçün başqa yollara, dolayısı ilə şiddətə müraciət edirlər. Halbuki ünsiyyət bacarığı inkişaf etmiş fərdlər bir-birini dinləməyə, istəklərini dilə gətirməyə, problemlərin öhdəsindən birgə gəlməyə çalışırlar.

Deyirlər, bir döyüşçü müdrik kişinin yanına gələrək ondan Cənnət və Cəhənnəm anlayışlarını izah etməsini istəyir. Ancaq müdrik ona həqarətlə cavab verir: "Sən qanmazsan. Sənə vaxt ayırmağa dəyməz". Özünü alçaldılmış hiss edən döyüşçü qılıncını qınından çıxarıb, qəzəblə deyir: "Səni bu təkəbbürünə görə öldürə bilərəm". Müdrik isə sakit tərzdə cavab verir: "Budur. Bu, Cəhənnəmdir". Döyüşçü qapıldığı hirsə eyham vuran ustadın sözlərindən diksinərək, özünü ələ alır və qılıncını qınına qoyur. Sonra təzim edərək verdiyi dərsə görə ona təşəkkürünü bildirir. Buna cavab olaraq müdrik deyir: "Bax, bu isə Cənnətdir".

Səhifəni hazırladı: Güney Namazova

# BÖLGƏLƏRDƏ MƏHƏRRƏM AYI İLƏ BAĞLI TƏDBİRLƏR KEÇİRİLİB

*Bölgələrdə Məhərrəm ayının başlanması, Aşura ilə bağlı tədbirlərin xurafata yol vermədən, islami dəyərlərə, mövcud qanunvericiliyə və Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının fətvasına uyğun şəkildə keçirilməsi, bu işdə din xadimlərinin üzərinə düşən vəzifələr ilə əlaqədar maarifləndirmə tədbirləri keçirilib. Bu qəbildən olan tədbirlər:*



**13 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Saatlı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Məhərrəmlik mərasimləri ilə bağlı kütləvi dini mərasimlərin keçirilməsi zamanı ictimai asayişin təmin edilməsi" mövzusunda;

**18 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli RİH-in birgə təşkilatçılığı ilə "Aşura mərasimləri: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda;

**19 iyul** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurasının birgə təşkilatçılığı ilə Gəncə şəhəri "İmamzadə" dini kompleksində; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və QMİ-nin bölgə üzrə qazılığının birgə təşkilatçılığı ilə Ağdaş şəhəri "Hacı İsmayıl" məscidində "Məhərrəmlik ayında dini mərasim, ayin və tədbirlərin təşkili və keçirilməsi" mövzusunda; Salyan, Neftçala, Biləsuvar, Hacıqabul rayonu və Şirvan şəhərində fəaliyyət göstərən din xadimləri və dini icma sədrlərinin iştirakı ilə Salyan şəhər Hacı Tağı məscidində; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar, Göyçay və Kürdəmir rayonlarında; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsu şəhər "Nuran Xatun" məscidində; Masallı Rayon İcra Hakimiyyətində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Astara RİH və QMİ-nin Astara rayonu üzrə səlahiyyətli nümayəndəliyinin birgə təşkilatçılığı ilə; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran ŞİH və QMİ-nin Lənkəran bölgəsi üzrə qazısının birgə təşkilatçılığı ilə;



**20 iyul** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və QMİ-nin Zaqatala rayon Qazılığının birgə təşkilatçılığı ilə "Aşura mərasimi: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda; Şəki şəhər mərkəzi "Cümə" məscidində; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax RİH və QMİ-nin rayon Qazılığının birgə təşkilatçılığı ilə Qax rayon "Mərkəzi Cümə" məscidində "Aşura mərasimləri: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda;

**26 iyul** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir Gənclər Evində "Aşura mərasimləri: tarix, ənənə və hüquq müstəvisində" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəmkir rayonunda baş tutub.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri və ziyalılar iştirak ediblər.

Çıxışlar zamanı bu istiqamətdə maarifləndirmə tədbirlərinin əhəmiyyətindən bəhs olunub, Məhərrəmlik mərasimlərinin və dini ənənələrin qədim tarixi kökləri haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, Məhərrəm ayı ilə bağlı keçiriləcək tədbirlərdə müvafiq qanunvericiliyin tələblərinə riayət edilməli, tolerantlıq ənənələrinə, insanların birgəyaşayış mühitinə xələl gətirəcək fikirlər səsləndirilməməlidir.



Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvası oxunaraq onun tələblərinə ciddi riayət olunması tövsiyə edilib, zəncir vurub baş yarmağın, bədənə əziyyət verməyin dində bəyənilmədiyi və bunun əvəzinə qanvermə aksiyalarında fəal iştirak etməyin daha humanist hərəkət olduğu bildirilib. Son illərdə Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə Kərbəla şəhidlərinin xatirəsinə qan vermə aksiyasının keçirildiyi, dindarların qanvermə aksiyalarında fəal iştirakının ən münasib əzadarlıq nümunələrindən biri olduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Həmçinin çıxışlar zamanı əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi söylənilib. İslam dininin mənəviyyatımız, mədəniyyətimiz, mental dəyərlərimizlə bağlı olduğu, bu gün hər bir Azərbaycan vətəndaşının, xüsusən də gənclərin üzərinə milli-mənəvi dəyərlərimizi düzgün öyrənmək və təbliğ etmək kimi məsuliyyətli bir vəzifənin düşdüyü qeyd edilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



# TÜRKİYƏ PREZİDENTİ MÜSƏLMAN ALƏMİNİ İSLAMOFOBİYA İLƏ MÜBARİZƏDƏ SƏYLƏRİ BİRLƏŞDİRMƏYƏ ÇAĞIRIB

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qərb ölkələrində getdikcə güclənən ksenofobiya və islamofobiya ilə mübarizədə səyləri birləşdirməyə çağırış edib.

Türkiyə dövlətinin başçısı Şimali Amerikanın Pakistanlı Həkimlər Assosiasiyasının 46-cı illik toplantısına videomüraciətində deyib: "Qurban bayramının birinci günündə müqəddəs kitabımız "Qurani-Kərim"ə qarşı İsveçdə edilən mənfur hərəkət islamofobiyanın qorxunc təzahürüdür. Bütün müsəlman aləmi belə halların təkrarlanmaması üçün səyləri birləşdirməlidir".

Rəcəb Tayyib Ərdoğan İslam dünyasına müraciətində vurğulayıb: "Türkiyədə sərt reaksiya verdiyimiz bu cür halların təkrarlanmaması üçün hamımızın, bütün müsəlmanların üzərinə böyük məsuliyyət düşür. Əgər biz bir ürək, bir yumruq kimi birləşsək, dünyada heç kəs müsəlmanların müqəddəs rəmzlərinə qarşı hücuma cürət edə bilməz".

# ARXEOLOQLAR DÜNYANIN ƏN QƏDİM MƏSCİDLƏRİNDƏN BİRİNİN XARABALIQLARINI AŞKARLAYIBLAR

İsraildə arxeoloqlar Tiberiya şəhərində qazıntılar zamanı İslamın yaranmasından sonra ilk onilliklərdə tikildiyi güman edilən məscidin xarabalıqlarını aşkar ediblər. Bu barədə "Associated Press" xəbər verib.

Məscidin Yəhudi Universitetinin (Qüds) arxeoloqları tərəfindən Qalileya dənizinin cənubunda qazılmış təməli onun Məhəmməd peyğəmbərin ölümündən təxminən bir neçə onillik sonra tikildiyini göstərir. Bu da məscidi arxeoloqlar tərəfindən aşkar edilmiş ən qədim müsəlman ibadət evlərindən birinə çevirir.

Xam bünövrənin altından tapılan sikkələr və saxsı qablar məscidin tarixini təxminən eramızın 660-680-ci illərinə, şəhər ərəblər tərəfindən ələ keçirildikdən bir nəsil sonraya aid etməyə imkan verir. Binanın ölçüləri, sütunlu mərtəbə planı və mehrab (məscidin divarında Məkkə istiqamətini göstərən taxça) o dövrün digər məscidlərini xatırladır.

Yəhudi Universitetinin İslam arxeologiyası üzrə mütəxəssisi, qazıntıların rəhbəri Katya Citrin-Silverman hesab edir ki, yeni aşkar edilmiş məscidin qazıntıları erkən müsəlman ibadət evlərinin memarlığını öyrənmək baxımından nadir imkanlar yaradır və ilk İslam liderlərinin digər dinlərə qarşı dözümlülüyünü göstərir.

Məscid eramızın 670-ci illərində tikiləndə Tiberiya artıq bir neçə onilliklər ərzində müsəlmanların nəzarəti altında idi. Eramızın 20-ci illərində qurulmuş və imperator Tiberinin adını daşıyan şəhər təxminən beş əsr ərzində Yəhudiliyin əsas mərkəzi olmuşdur. 635-ci ildə müsəlmanlar tərəfindən fəth edilməzdən əvvəl isə şəhər Bizans İmperiyasının tabeliyində olmuşdur və burada xristian kilsələri var idi.

Müsəlmanların fəthindən sonra Tiberiya Ərəb xilafətinin əyalətlərindən birinin paytaxtına çevrilmişdir. Məlumdur ki, ilk xəlifələr şəhərin kənarında gölün sahilində saraylar tikdirmişlər. Ancaq yaxın vaxtlara qədər tədqiqatçılar şəhərin erkən İslam keçmişi haqqında çox az şey bilirdilər.

Fəth edilən şəhərdə tikilən ilk məscid sinaqoqların və Bizans kilsəsinin yanında yerləşirdi. Citrin-Silvermanın fikrincə, ən qədim məscid yarım əsr sonra onu əvəz edən daha böyük, daha möhtəşəm tikilidən "daha təvazökar" idi. "Ən azından VIII əsrdə monumental məscid tikilənə qədər xristian kilsəsi Tiberiyadakı ən böyük bina olaraq qalmağa davam etmişdir". O, iddia edir ki, bu fakt əsasən qeyri-müsəlman əhali üzərində hökmranlıq edən ilk müsəlman hökmdarlarının digər dinlərə qarşı dözümlü olması ilə bağlı fərziyyəni dəstəkləyir.

İsrail Qədim Əsərlər İdarəsinin baş arxeoloqu Gideon Avni isə qazıntılarda iştirak etməsə də, bildirib ki, tapıntı mehrabların məscidlərdə ilk dəfə nə vaxt ortaya çıxdığı ilə bağlı elmi mübahisənin həllinə də kömək edə bilər.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

**"Masallı rayonu Mahmudavar kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 16 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 108

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əbilov Şirvan Rəşid oğlu, Ağayev Sərraf Məmmədrəhim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qasımov Mətləb Şaban oğlu, Əzimov Adil Bidad oğlu, Həsənzadə Tahir Həsən oğlu, Məmmədov Xudayar Hacı oğlu, İbadov Nail Ağariza oğlu, Qasımov Rakif Adıgözəl oğlu, Babayev Furqan Vəzir oğlu, Sadıqov Seyfəddin Cəbrayıl oğlu, Əzizov Nizami Xanəhməd oğlu, Əliyev Cavad Dadaş oğlu, Babayev Asəf Vəzir oğlu, Sadıxov Əhməd Akif oğlu, Əzimov Nurulla Eynalı oğlu, Ağayeva Sudabə Kamal qızı, Məmmədov Həzərxan Qaraxan oğlu, Hüseynov Hakim Xudaqulu oğlu, Sadıqov Fərasət İsrafil oğlu, Məmmədov Famil Ağacan oğlu, Axundov Fariq Feyruz oğlu, Həsənov Rəzzaq Əkbər oğlu, Rəfiyev Qılman Fərman oğlu, Babayev Mail Vəkil oğlu, Babayev İslam Baba oğlu, Ağayev Kamaləddin Muğbil oğlu, Qasımov Bəhruz Feyruz oğlu, Babakişiyev Xeyrulla Fərzulla oğlu, Bəşirov Mirzağa Daməd oğlu, Əliyev Ramil Həsənağa oğlu, Həsənov Əkbər Dəyyan oğlu, Hüseynov Vüsal Məhəmməd oğlu, Məcidov Yaşar Qardaş oğlu, Əhmədov Qurbət Hacı oğlu, İbadov Rzabala Əlibala oğlu, Rəfiyev Rzabala Fərman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 04 iyul 2023-cü il

**"Yardımlı rayonu Yardımlı şəhər Əsədabad məhəllə məscidi" dini icması**

Qeydiyyat tarixi: 01 iyul 2011-ci il
Qeydiyyat №-si: 100111A 1 – 542-23

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səmədov Mirheybət Qeyrət oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

İsmailov Vaqif Məhərrəm oğlu, Soltanov Rəsul Əliağa oğlu, İsmayılova Rəna Yadulla qızı, Əşrəfova İradə Ələskər qızı, Mustafazadə İslam Hikmət oğlu, Mustafayev Sadıq Ədalət oğlu, Həsənova Xırdanisə İxtiyar qızı, Miranova Gülüstan Sayadulla qızı, Mustafayev Təbiyət Mənsimxan oğlu, Nəsirov Alverdi Babacan oğlu, Sultanova Ceyran Mirqulam qızı, Zairova Ceyran Hilal qızı, Novruzova Rəna Dilavər qızı, Soltanova Qəmər Əliağa qızı, Cəbiyev Elçin Bəylər oğlu, Cəbiyev Bəylər Abiş oğlu, Abbasova Şəhla Nüsrət qızı, Mustafayeva Dilarə Aslan qızı, Cəbizadə Aytac Hikmət qızı, Nəsirov Cəlal Alverdi oğlu, Soltanov Mais Əliağa oğlu, Mahmudova Adilə Mirzəcan qızı, İsmayılova Gülüsüm Xankişi qızı, İsamailov Eyvaz Məhərrəm oğlu, Sultanov Məmi Məci oğlu, İsmailova Firəngiz Pövrüz qızı, Sahratova Gülşən Məmi qızı, Sahratov İxtiyar Əlikömək oğlu, Miranlı Abidin Ağadin oğlu, Bağırova Pərvanə Ədalət qızı, Mustafayev Hikmət Mənsimxan oğlu, Rzazadə Musa Taleh oğlu, Rzazadə Rza Taleh oğlu, Mustafazadə Əli Marifət oğlu, Eyvazova Arzu Rövşən qızı, İsmayılzadə Mehman Eyvaz oğlu, Əlizadə Yasin Vəli oğlu, Əliyev Vəli Xudaşükür oğlu, Naqiyev Vüqar Fərman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 05 iyul 2023-cü il

**"Biləsuvar rayonu Yuxarı Ağalı kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 17 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 407

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mahmudov Ağagül Mirələm oğlu, Əliyev Həmzəxan Mikayıl oğlu, Əliyev Ağacəfər Zamanxan oğlu, Abdulov İslam Mirayə oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Abdulov Mahir Mirayə oğlu, Kazımov Hafiz Haxverdi oğlu, Abdulzadə Mirzeynal İslam oğlu, Ağayev Adil Mikayıl oğlu, Qardaşxanov Eldar Allahverən oğlu, Qardaşxanov İbrahim Allahverən oğlu, Abdulov Bəhruz Azadxan oğlu, Abdulov Natiq Mirəhməd oğlu, Abdulov Fariz Mirayə oğlu, Ağayev Nemət Nadir oğlu, Abdulov Ramiz Mirayə oğlu, Bəşirov Vilayət Zaur oğlu, Abdulova Nüşabə Elyas qızı, Qaralı Orxan Məhəmməd oğlu, Hüseynov Ələddin Meşəbəyi oğlu, Fətəliyev İsmayıl Aslan oğlu, Məmmədov Şirnalı Məmmədxan oğlu, Bəşirov Vaqif İsmiəli oğlu, Bəşirov İmaməli İsmiəli oğlu, Əliyev Şamil Həmzə oğlu, Həbiyev İbrahimxəlil Xudaverdi oğlu, Bəşirov Xaqani İmran oğlu, Abdulova Zərgül Mirayə qızı, Bəşirova Təranə İmran qızı, Abdulova Leyla Mirəhməd qızı, Əliyeva Ətlaz Hacıağa qızı, Bəşirova Havanisə Ağa qızı, Quliyeva Nənəxanım Əsgər qızı, Əliyeva Dilafət Əhmədağa qızı, Əhədova Zülfinaz Kəlvəz qızı, Bəşirov Bəxtiyar Vidadi oğlu, Bəşirov Nicat Qərib oğlu, Quliyev Elnur Mirzə oğlu, Əliyev Ağadin Ənvər oğlu, Ağayev Laiq Kamil oğlu, Əliyev Ənvər Ağacəfər oğlu, Bayramova Qəmər Bağış qızı, Bəşirli Araz Mirzə oğlu, Ağayev Şahin Adil oğlu, Kazımov Əyyub Hafiz oğlu, Həsənov Yusif Mirxas oğlu, Bəşirbəyli Murad Vaqif oğlu, Bəşirov Ramin İsmiəli oğlu, Əcəmov İbrahim Elçin oğlu, Bəşirov Azad Vaqif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 06 iyul 2023-cü il

**"Hacıqabul rayonu Şorbaçı kəndi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 09 sentyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-696

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həsənov Nəsir Həmid oğlu, Abdullayev Qəfər Qaraoğlan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Quliyev Elnur Ağakişi oğlu, Əliyev Elşən Novruz oğlu, Quliyeva Pirxanım Fərhad qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Həsənov Nəsir Həmid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Quliyev Elnur Ağakişi oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2023-cü il

**"Hacıqabul rayonu Qubalıbalaoğlan kənd məscidi" dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116A – 685

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bağiyev Vahidxan Hüseynağa oğlu, İslamov Əliverdi Pəncəli oğlu, Əskərov Mirəkbər Mirismayıl oğlu, Güləliyev Ramiz Məhəmməd oğlu, Səlimov Baləli Səlim oğlu, Piriyev Məhəmməd Məhəmmədhəsən oğlu, Cavadov Gülağa Həsən oğlu, Müslümov Əlixuda Kamran oğlu, Əbilov Əbil Əfsər oğlu, Hacıyev Nizami Qulu oğlu, Hüseynov Bəybala Hüseyn oğlu, Atakişiyev Qurban Nağdalı oğlu, Ağayev Kərim Şahkərim oğlu, Alışov Əliskəndər Cavad oğlu, Atabalayev Məmməd Əzəbulla oğlu, Mirzəliyev Mirzəli Şeyda oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əliyev Qulu Məhəmməd oğlu, Piriyev Qurbanəli Pirəli oğlu, Balakişiyev Ceyhun Beydi oğlu, Əzizov Bahadur Ağahüseyn oğlu, Ələsgərov Şahin Nəsrulla oğlu, Atamaliyev Qismət Əliverdi oğlu, İsmayılov Mirəhəd Mirkazım oğlu, Manafov Toğrul Qalib oğlu, Hüseynov Valeh Bəybala oğlu, Ağayev Məhəmməd Kərəm oğlu, Alışov Cavad Əliskəndər oğlu, Vəliyev Aslan Əkbər oğlu, Əsgərov Cuvan Abısalam oğlu, Şahbazov Gülabbas Abbas oğlu, İsmayılov Şiralı Xanat oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2023-cü il

**"Zaqatala rayonu Aşağı Tala kənd" dini icması**

Qeydiyyat tarixi: 06 aprel 2021-ci il
Qeydiyyat №-si: 100121D-951

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əlibəyov Vidadi Rizvan oğlu, Məmmədov Azər Yusif oğlu, Qurbanov Fərhad Səfər oğlu, Ərəbov İmran Qurban oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Kələşov Namiq Tahir oğlu, Ərəbli Qurban İmran oğlu, Süleymanov Sərxan Süleyman oğlu, Xəlilov Murad Musa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2023-cü il

**"Balakən şəhəri "Mərkəzi Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 01 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2–46

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kazımov Cavad Teyyub oğlu, Cüciyev Oktay Qazı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Mamedov Süleyman Əhmədiyyə oğlu, Xəlilov Nurullah Nurhuda oğlu, Süleymanov Mehdi Baxış oğlu, Qebedov Əli Həmzət oğlu, Səfərov Hicran Cuma oğlu, Paxırov Mübariz Əhmə oğlu, Xəlilov Vahid Əhmədullah oğlu, Sadıqov Faiq Nəzir oğlu, Qınçıyev Bayram Məcid oğlu, Xəmmədov Qüdrət Abdulhəmid oğlu, Musayev Müslüm İsrafil oğlu, Çantayev Hacı Məhəmməd oğlu, Yusubov Adil Yusub oğlu, Xəlilov Nurhuda Nurullah oğlu, Həsənov Xəqani Faiq oğlu, Əzizov Asif Səlahəddin oğlu, Çompuzov Etibar İsmayıl oğlu, Qurbanov Qurbanhacı Hizbullah oğlu, Yunusov Şahin Yunus oğlu, Xəlilov Vüqar Qara oğlu, Xəlilov Rövşən Nurhuda oğlu, Məmmədov Yusif Zakir oğlu, Dibirov Habil Həmzət oğlu, Məmmədov Altay Şükür oğlu, Paxırov Hikmət Məhəmməd oğlu, Ramazanov İbrahim Məhəmməd oğlu, Baknalov Akif Rəhman oğlu, Ağcayev Sabir Əli oğlu, Dibirov Cavid Məhəmməd oğlu, Kantayev Şamil Mahama oğlu, Paçalov Davud Həmzət oğlu, Murtuzəliyev Valeh Ata oğlu, Əmrəliyev Mübariz Abdulvaris oğlu, Qallacov İsrafil Şamil oğlu, Cindarov Eyvaz Osman oğlu, Seyfəddinov Hüseyn Həsən oğlu, Cindarov Abdulhəmid Balay oğlu, Ağcayev Elnur Nemət oğlu, Heydərov Təmraz Qaraağa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2023-cü il

**"Azərbaycan Bəhailəri dini mərkəzi"**

Qeydiyyat tarixi: 03 sentyabr 2004-cü il
Qeydiyyat №-si: 285

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Nəsirova Lütviyə İzzəddin qızı, Qasımova Elmira Qulam qızı, Həsənov Fərid Davud oğlu, Əmrahlı Ruslan Rəsul oğlu, Əlizadə Ramin Allahverdi oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əfəndiyev Abin Məmməd oğlu, Məmmədova Leyla Namiq qızı, Hüseynova Aytac Əlinasir qızı, Məmmədova Aidə Maratovna, Əlizadə Vüqar Əlinasir oğlu, Muradov Altay Oqtay oğlu, Əhmədov İsmayıl Söhrab oğlu, Şirinbəyov Rasim Midxadoviç, Eyvazova Gülnarə Mirsahab qızı, Məhəmmədəvəli Heydər Əli oğlu, Sadıxlı Ziba Yaşar qızı, Əsgərli Ramazan Nurəli oğlu, Əfəndiyeva Jalə Elbrus qızı, Nəbiyeva Emiliya Rauf qızı, Səlimov Elvin Əliyusif oğlu, Mütəllibzadə Hüsniyyə İbrahim qızı, Əhmədova Şəhla Səməd qızı, Yazıcı Lalə Fərid qızı, Babayeva Naciyə Əli qızı, Məhəmmədəvəli Erfan Heydər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

«Azərbaycan Bəhailəri dini mərkəzi»nin Nizamnaməsinin 1.6-cı bəndi çıxarılmış, 3.5.7-ci, 3.5.10-cu bəndlərinin məzmununda müvafiq dəyişikliklər edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 13 iyul 2023-cü il

davamı səh. 15

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR (DİNİ QURUMLARIN DÖVLƏT REYESTRİ) MƏLUMATLARI

əvvəli səh. 14

**"Hacıqabul rayonu Muğan qəsəbəsi "Cümə" məscidi" dini icması**

Qeydiyyat tarixi: 15 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 435

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Abasov Malik Heybət oğlu, Əliyev Rza Ağarza oğlu, Bayramov Əliyusif Qulu oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qayıbəliyev İlham Böyükkişi oğlu, Əsədov Zabit Qulu oğlu, Xəlilov Baxış Sərkar oğlu, Aslanlı Azad Adıgözəl oğlu, Qoçayev Nizami Abdulla oğlu, Zeynalov Bilal Aslan oğlu, Şahbazov Şahid Təhməz oğlu, Cəfərov Oqtay Dədəxan oğlu, Qarayev Heydər Əskər oğlu, Zülfüqarov Teymur Atamoğlan oğlu, Rəhimov Qabil Kəmarşah oğlu, Qayıbəliyev Ağakişi Böyükkişi oğlu, Şahbazov İsmayıl Polad oğlu, Şərfaliyev Rövşən Adil oğlu, Cəfərov Cəmşid Səlimxan oğlu, Məmmədov Mübariz Xanbala oğlu, Abasov Sabir Məlik oğlu, Əzizov İkram Əzizağa oğlu, Orucov Cəfər Kamal oğlu, Ələkbərov Misirxan Ağaverdi oğlu, Ağasəmidli Bəyaz Əli oğlu, Orucov Kamal Ələkbər oğlu, Dadaşov Nuşiravan Əlizamin oğlu, Əliyev Fayiq Məhəddin oğlu, Kamalov Pirşah Etibar oğlu, Əzizov İsiaməli Əzizağa oğlu, Ağayev Elmir Azər oğlu, Ağayev Səxavət Ağasəmid oğlu, Şahbazlı Pərvin Əlizadə oğlu, Ağayev Əkbər Gülağa oğlu, Ağayev Zahir Novruz oğlu, Rustamov Mirbala Bahadur oğlu, Rzayev Əvəz Əvəzali oğlu, Quliyev Əlibala Vəli oğlu, Əmiraslanov Ədalət İslam oğlu, Məmmədov Möhlət Qəfər oğlu, İsmayılov Mehman Məmməd oğlu, Kərimov Şahnəzər Əbilhəsən oğlu, Kərimov Ağanəzər Əbilsən oğlu, Qəniyev Arif Həmzə oğlu, Quliyev Rasim Gülbala oğlu, Mahmudov Rahil Sovet oğlu, Ağazadə Mehrac Telman oğlu, Ağayev Əli Ağasəmid oğlu, Sultanov Habil Ağasəlim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 26 iyul 2023-cü il

**Ləğv**

**Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahı**

Qeydiyyat tarixi: 11.12.2002-ci il
Qeydiyyat №-si: 146

"Mingəçevir şəhəri, Mingəçevir kənd "Şeyx Əbdül" ziyarətgahı" dini qurumunun təsisçilərinin 12.06.2023-cü il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 06 iyul 2023-cü ildə qeydə alınıb.

## ARGENTİNALI KEŞİŞ PAPA FRANSİSKİN YENİ ŞƏXSİ KATİBİ SEÇİLİB



Buenos-Ayres Baş yeparxiyasının rəhbəri, arxiyepiskop Xorxe Qarsia Kuerva iyulun 17-də elan edib ki, Papa Fransisk Buenos-Ayres arxiyeparxiyasından bir keşişi, 40 yaşlı Daniel Pellizzonu şəxsi katibi təyin edib. Bu barədə CNA agentliyi xəbər verib.

X.Q.Kuerva bildirib ki, Pellizzon yeni vəzifəsinə başlamaq üçün avqustun əvvəlində Romaya yola düşəcək. Arxiyepiskop "Kilsəyə xidmət üçün həvalə edilmiş bu yeni missiyaya" başlaması münasibətilə keşiş üçün dua edib.

Daniel Pellizzon 24 yanvar 1983-cü ildə Buenos-Ayresdə anadan olub. 2011 və 2012-ci illərdə o, şəxsi arxivini təşkil etməsi üçün həmin dövrdə Argentina paytaxtının arxiyepiskopu olan, kardinal Xorxe Berqolyo ilə birlikdə işləyib. Pellizzon 3 noyabr 2018-ci ildə keşiş təyin edilib. O, vəzifəsinə əvvəlcə dyakon, sonra isə kilsə vikarisi kimi başlayıb və beş il Buenos-Ayresin Linier rayonundakı Müqəddəs Kaetin kilsəsində zəvvarlara xidmət göstərib. 2023-cü ilin martından bu günə qədər Pellizzon Mərhəmətli Məryəm Ana prixodunun vikarisidir.

## BUDDANIN NƏHƏNG HEYKƏLİNİN YERLƏŞDİYİ MƏBƏD KOMPLEKSİNİN AÇILIŞI OLUB

Myanma hökuməti iyulun 21-də mərkəzi obyekti oturmuş nəhəng Budda heykəli olan məbəd kompleksinin açılışını edib. Məbədin təqdisi avqustun 1-nə planlaşdırılıb. Bu barədə "Associated Press" xəbər verib.

92 hektar əraziyə malik kompleks Myanmanın paytaxtı Neypidoda yerləşir. Buraya paqodalar (budda məbədi), ubosot (buddist monastırının əsas ziyarətgahının yerləşdiyi başlıca binası), fəvvarələr, göl və park daxildir. Ubosotda dualar oxunur, meditasiya edilir, dini mərasimlər keçirilir, müqəddəs mətnlər oxunur, rahiblər vəzifələrinə təyin olunurlar. Çox vaxt ubosot yalnız rahiblər üçün açıq olur, qeyri-ruhanilərin oraya girişinə icazə verilmir.

Məbəd kompleksinin tikintisinə hərbi hökumətin başçısı, Myanma Silahlı Qüvvələrinin baş komandanı, general Min Aunq Hlain şəxsən özü nəzarət edib. Onun sözlərinə görə, bu məbəd kompleksindəki mərmər Budda heykəli dünyanın ən hündür heykəlidir.

Hlain qeyd edib ki, kompleksin tikintisi və Budda heykəlinin inşası "Myanmada Theravada Buddizminin (Buddizmin ən qədim məktəbi) çiçəklənməsini göstərmək, Myanmanı Theravada Buddizminin mərkəzinə çevirmək, ölkənin çiçəklənməsini təmin etmək və bütün dünyada sülh və sabitliyi təşviq etmək" məqsədi daşıyır.

Min Aunq Hlain onu da bildirib ki, Budda heykəlinin hazırlanmasına 2017-ci ildə, mədənçıxarma şirkəti tərəfindən Myanma hökumətinə nəhəng xam mərmər parçası təqdim edildikdən sonra başlanılıb.

Myanma KİV-inin məlumatına görə, oturmuş Budda heykəlinin hündürlüyü təxminən 24,7 metr, çəkisi isə 5 min tondan artıqdır. O, bir mərmər parçasından oyulmuşdur.

## ƏFQANISTAN QURANIN YANDIRILMASI İLƏ BAĞLI İSVEÇİN ÖLKƏDƏKİ FƏALİYYƏTİNİ QADAĞAN EDİB




Əfqanıstan Stokholmda Quranın yandırılmasından sonra İsveçin ölkədəki bütün fəaliyyətlərini dayandırdığını bildirib. Bu barədə "REUITERS" məlumat yayıb.

"Qurani-Kərimi təhqir etdikdən və müsəlmanların inanclarını təhqir etməyə icazə verdikdən sonra... Əfqanıstan İslam Əmirliyi İsveçin Əfqanıstandakı bütün fəaliyyətlərini dayandırmağı əmr edir", – Taliban administrasiyasının sözçüsü Zabiullah Mücahid bildirib.

Taliban administrasiyası qadağanın hansı təşkilatlara aid olacağına aydınlıq gətirib. Lakin çox güman ki, qadağa ölkə daxilində səhiyyə, təhsil və kənd yerlərinin inkişafı sahələrində çalışan minlərlə humanitar işçisi olan Əfqanıstanın İsveç Komitəsi qeyri-hökumət təşkilatına aid ediləcək.

Qeyd edək ki, 37 yaşlı İraq əsilli Salvan Momika Stokholmdakı əsas məscidin yaxınlığında keçirilən etiraz aksiyasında iştirak edərək Quranı yandırıb və kitabın arasına bir parça donuz əti qoyub. Daha sonra İsveç polisinə oxşar aksiyalar üçün bir neçə icazə ərizəsi daxil olub və heç biri rədd edilməyib. Müsəlman ölkələri İsveçin bu hərəkətlərinə etiraz ediblər.

## YUNANISTANDAKI ANTİK MƏBƏD KOMPLEKSİNDƏ RİTUAL ƏŞYALARI VƏ QURBANLAR TAPILIB



"Associated Press"-in verdiyi məlumata görə, Egey dənizindəki Kitnos adasında yerləşən təpənin zirvəsindəki ziyarətgahda qazıntı aparan arxeoloqlar rituallarda və ya tanrılara qurban vermək məqsədilə istifadə edilən keramik heykəlciklər və qablar tapıblar.

Yunanıstanın Mədəniyyət Nazirliyi açıqlamasında bildirib ki, arxeoloqların tapıntıları arasında insan, tısbağa, şir, donuz və quşların təsviri olan 2000-dən çox bütöv və ya bir qədər zədələnmiş gil heykəlciklər var. Qazıntılar zamanı aşkar edilmiş bir neçə mərasim saxsı qabları qədim yunanların əkinçilik ilahəsi Demetra və onun qızı Persefonanın kultu ilə əlaqələndirilir. Elə tədqiq edilən məbəd kompleksi də ona ithaf edilmişdir.

Kompleksə iki kiçik məbədin xarabalıqları, anbar kimi istifadə edilmiş uzun tikili və yenilərinə yer açmaq üçün köhnə qurbanların basdırıldığı çuxurlar daxildir. Ziyarətgahdan eramızdan əvvəl VII əsrdən başlayaraq təxminən min il istifadə edilmişdir.

# CƏMİYYƏT və DİN

№ 07 (381) İYUL 2023-cü il


## AYASOFYANI ÜÇ İLDƏ 21 MİLYON İNSAN ZİYARƏT EDİB



Yenidən ibadətə açılan Ayasofya məscidi üç ildə 21 milyona yaxın ziyarətçi qəbul edib.

"Anadolu" agentliyi xəbər verir ki, İstanbulun fəthinə qədər 916 il kilsə, 1453-cü ildən isə məscid kimi istifadə edilən Ayasofya 1934-cü ildən başlayaraq 86 il muzey kimi fəaliyyət göstərib.

Ayasofya məscidi 2020-ci il iyulun 24-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirak etdiyi möhtəşəm mərasimlə 86 ildən sonra ilk cümə namazı ilə yenidən ibadətə açılıb. Yerli və xarici turistlərin böyük maraq göstərdiyi Ayasofyanın qarşısında zaman-zaman yüzlərlə metr uzanan növbələr yaranır.

Məscidin imamı Bünyamin Topçuoğlunun sözlərinə görə, 2021-ci ildə koronavirus pandemiyası səbəbindən ziyarətçi sayı cəmi 1 milyon 300 min nəfər olub. 2022-ci ildə Ayasofyanı 13 milyon 600 min, bu ilin yanvar-iyun aylarında isə 6 milyon nəfər ziyarət edib. Bu say getdikcə artır. Bəziləri buraya müsəlman olmaq üçün gəlir.

## DÜNYA ƏHALİSİNİN 60 FAİZİ SOSİAL MEDİANIN AKTİV İSTİFADƏÇİSİDİR



Təxminən beş milyard insan və ya dünya əhalisinin 60 faizi sosial medianın aktiv istifadəçisidir.

"Kepios" rəqəmsal konsaltinq firmasının araşdırmasına görə, 2022-ci ildən bəri sosial şəbəkə istifadəçilərinin sayı 3,7 faiz artaraq bütün internet auditoriyasının sayına (5,19 milyard nəfər) yaxınlaşıb. İstifadəçilərin sosial mediada keçirdikləri vaxt da artaraq gündə orta hesabla 2 saat 26 dəqiqəyə çatıb.

Bildirilir ki, sosial şəbəkələrdə ən çox vaxt keçirən 16-24 yaş arasında qadınlardır, 55-64 yaşlı kişilər isə ən az aktivdir.

İnsanların sosial şəbəkələrdə keçirdikləri vaxt regionlara görə dəyişir. Belə ki, Şərqi və Mərkəzi Afrikada hər 11 nəfərdən yalnız biri sosial şəbəkə istifadəçisidir. Hazırda dünyanın ən çox əhalisi olan Hindistanda isə hər üç nəfərdən biri sosial mediadan istifadə edir.

## «TWİTTER» LOQOTİPİNİ DƏYİŞİB

Tviter sosial şəbəkəsi loqotipini "X" (iks) hərfi ilə dəyişib.



Artıq saytda adət etdiyimiz mavi quşcuğaz əvəzinə "X" hərfi görünür. Bundan başqa, yeni loqotip "Twitter" servisinin Kaliforniyadakı binasına da proyeksiya olunub.

Tviterin sahibi İlon Maskın sözlərinə görə, bundan sonra sayta X.com ünvanı vasitəsilə girmək mümkün olacaq və yaxın zamanlarda sosial şəbəkənin loqotipi dəyişəcək.

## Bakı və Abşeron üzrə namaz vaxtları (İyun - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 04:03 | 05:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 04:04 | 05:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 04:06 | 05:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 04:07 | 05:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 04:09 | 05:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 04:10 | 05:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 04:11 | 05:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 04:13 | 05:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 04:14 | 05:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 04:15 | 05:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 04:17 | 05:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 04:18 | 05:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 04:19 | 05:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 04:21 | 05:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 04:22 | 05:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 04:23 | 05:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 04:25 | 05:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 04:26 | 05:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 04:27 | 05:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 04:29 | 05:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 04:30 | 05:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 04:31 | 05:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 04:33 | 06:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 04:34 | 06:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 04:35 | 06:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 04:36 | 06:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 04:38 | 06:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 04:39 | 06:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 04:40 | 06:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 04:41 | 06:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

## BİLL QEYTSDƏN UĞURLU HƏYAT ÜÇÜN DÖRD TÖVSİYƏ



"Microsoft"-un həmtəsisçisi, amerikalı milyarder Bill Qeyts insanlara həyatda şəxsi uğur əldə etmək üçün dörd tövsiyə verib.

Məşhur milyarder hər bir insana özünü başqası ilə müqayisə etməməyi məsləhət görür: "Bunu etsəniz, özünüzü təhqir etmiş olarsınız". İş adamı hesab edir ki, bu cür müqayisə gələcək inkişaf üçün "tələ"dir. Bu, özünə şübhə və lazımsız narahatlığa səbəb olur.

Qeytsin ikinci tövsiyəsi səhvləri qiymətləndirmək və onlardan dərs almaqdır: "Uğuru qeyd etmək gözəldir, amma uğursuzluqdan dərs almaq daha vacibdir". Milyarderin sözlərinə görə, uğur çox vaxt "hər şey və ya heç nə" kateqoriyasında qəbul edilir. Bu şərh uğursuzluq qorxusu yaradır və öz işlərində risk etmək cəhdlərinə mane olur.

Qeyts, həmçinin tövsiyə edib ki, insan öz həyatı üçün məsuliyyət daşımalıdır, o cümlədən şəxsi maliyyə müstəqilliyi məsələlərində. "Əgər kasıb doğulmusansa, bu, sənin günahın deyil. Amma kasıb ölürsənsə, günah səndindir", – deyə o bildirib. İqtisadi çətinliklər və ya uşaqlıqda sosial çatışmazlıq səbəbindən olan yoxsulluq insanların şüurlu şəkildə etdiyi seçim deyil. Bununla belə, Qeyts əmindir ki, qəbul edilən qərarlar gələcəkdə yoxsulluqdan xilas olmaq üçün insan həyatına əhəmiyyətli dərəcədə təsir edir.

Dördüncü tövsiyə isə həyatın uğurlu dövrlərində özündənrazılıq hissləri ilə mübarizə aparmağın vacibliyi ilə bağlıdır. "Uğur pis müəllimdir. Bu hiss özündənrazılığa səbəb olur ki, bu da öz növbəsində yeniliyə cəhd etməyin və daha da inkişaf etmək istəyinin qarşısını alır. Bununla mübarizə aparmaq üçün insan yeni ideyaları təşviq etməli və riskli qərarlar qəbul etməkdən çəkinməməlidir", - deyə o vurğulayıb.

### Yadigar söz

**Bernard Şou**

*Təbiətin boşluqlara dözümü yoxdur. İnsanlar həqiqətləri bilməyəndə boşluğu mövhumatla doldurarlar.*


Baş redaktor Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894